Azərbaycan Respublikası Nazirlər Kabineti yanında
"İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi
"İçərişəhər" tarixi muzeyi

# Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il

-14692-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Elm və təhsil
Bakı-2016

**Redaktor:** **Nəcəf Quliyev**
"İçərişəhər" tarixi muzeyinin direktoru

**İşçi qrup:** **Gülnar Əliyeva**
Əməkdar Mədəniyyət İşçisi
**İradə Qasımova**
**Həcər Alxasov**
**Pərvanə Əliyeva**
*Azərbaycan Memarlar İttifaqının üzvü*
**Yevgeniya Aşurli**
*Qərb Universitetinin dosenti*

**Bakı tarixinin ensiklopediyası : Sara Aşurbəyli - 110 il**
Bakı, "Elm və təhsil", 2016, 88 səh.

**ISBN 978-9952-8176-0-7**

**"Elm və təhsil", 2016**



## MÜNDƏRİCAT

**1.Teymur Bünyadov**
Sara xanım Aşurbəyli haqqında xatirələrim..............................3

**2. Kərim Şükürov**
Dünya qadın tarixçiliyi: şəxsiyyət və əfsanə
(Sara Aşurbəyli haqqında söz)..............................8

**3. Fərida Məmmədova**
Сара ханум Ашурбейли в истории Азербайджана..............................13

**4.Əli Rəcəbli**
Elmə həsr olunmuş həyat..............................18

**5.Nərgiz Quliyeva**
Sara xanım Aşurbəyli görkəmli tarixçi, ölməz insan idi..............................21

**6.Şahin Fazil**
Nəslinin şöhrətli təmsilçisi olan Sara Aşurbəyli haqqında
bəzi qeydlərim..............................24

**7.Xeyirbəy Qasımov**
Sara Bala qızı Aşurbəyli-110..............................34

**8.Elçin Əliyev**
Aşurbəyov qardaşlarının evi..............................43

**9.Vəfa Quliyeva**
Böyük nəslin yadigarı..............................47

**10.Gülnar Əliyeva**
Böyük alimin çətin taleyi ........................................................51

**11.Ramiz Aşurli**
Несколько строк из жизни великого ученого..............................55

**12.Kamil İbrahimov**
Sara Aşurbəylinin xatirələrindən mülahizələr.................................61

**13.Dilavər Əzimli**
Orta əsrlərdə Azərbaycan - Hindistan iqtisadi və mədəni əlaqələri Sara Aşurbəylinin tədqiqatlarında....................................73

**14.Qənirə Pirquliyeva**
Sara Aşurbəylinin fransız dili sevgisi- mənim həyatımda................79

**15. Ziyadxan Əliyev**
Sara Aşurbəylinin rənglər dünyası...................................................83

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il 2016

**Teymur Bünyadov**
***AMEA-nın həqiqi üzvü, akademik***

## Sara xanım Aşurbəyli haqqında xatirələrim

İlk öncə "İçərişəhər" Tarix Memarlıq Qoruğu İdarəsinin "İçərişəhər" tarixi muzeyinə Sara Aşurbəyli haqqında keçirəcəyi tədbirə görə öz adımnan və tarixçilər adınnan dərin hörmət və ehtiramlarımı bildirirəm.

Nazim Hikmətin bir sözü yadıma düşdü: "O deyirdi ki, sən yanmasan mən yanmasam nece çıxaq bu qaranlıqdan?" İndi bizim keçmişləri, ötmüşləri böyük alimləri sən yazanmasan, mən yazmasam kim yada salar?...

Mən hesab edirəm ki, Sara xanım haqqında söz demək onun ruhunu şad eləməkdir, qoy onun ruhu şad olsun!

Bu Aşurbəylilər nəsli Bakıda çox tanınmış , böyük nəsillərdən biridir. Sovet dövründə məşhur nəsilləri, böyük xadimləri olanların hamısını pis qələmə verirdilər. Sara xanım da xeyli çətinliklərlə üzləşmişdi. Sara xanım haqqında düşünəndə mən Davud bəy Şərifovu yada salıram. O, Azərbaycan Tarix muzeyinin vaxtılə XX əsrin I yarısında direktoru olmuşdur. Muzeyin tərkibində bir məktəb açdırmışdır. "Elmə həvəskarların yığıncağı" adlanırdı. Bu yığıncaqda iştirak edən iki böyük alimdən biri Sara xanım Aşurbəyli idi. Bu alim, hamıya nümunə olan bir xanımdır.

Mən 1955- ci ildə Moskvada dissertasiyamı müdafiə edib gələndə, Sara xanım Tarix İnstitutunda işləyirdi. Sara xanım ilə mənim münasibətim son dərəcə yaxın olub. Bu da səbəbsiz deyildir. Mənim həyat yoldaşım Zivər xanımın xalası Sara xanım Aşurbəylinin gəlini idi. Digər tərəfdən də mənim çox zəhmətkeş, elmə necə maraq göstərdiyimi izləyirdi, mənə köməkliklər

göstərirdi. Məhz bütün bunlar nəticəsində onun da mənə xüsusi hörməti var idi.

Bir az da sizlərə Sara xanımın əsərləri haqqında məlumat vermək istərdim. Aşurbəylinin bir qohumu onun əsərlərini bir neçə cilddə çap elətdirmişdi. Mən hesab edirəm ki, məhz bu Sara xanıma qoyulan heykəldir. Sara Aşurbəyli bir neçə dil bilirdi. Rus dili və fransız dilini isə ana dilindən də bəlkə daha çox bilirdi. Ona görə də mənbələri oxumaq, onlardan istifadə etmək, eyni zamanda elə əsərləri vardır ki, xüsusən Bakının tarixi haqqında olan əsəri əsrlər keçəcək ; minilliklər dolanacaq heç kim Sara xanımın əsəri qədər yaza bilməyəcək .Orta əsr mədəniyyətimizin qızıl səhifəsi olan Şirvan haqqında olan əsər də ona məxsusdur. Bu xanım xarici dilləri bildiyi üçün Azərbaycan-Hindistan əlaqələri haqqında da kitab yazmışdır. Bizlər bu kitab vasitəsilə çox şey öyrəndik. Bu əlaqələrin kökündə atəşgah var .Atəşgahı bizim torpağımızda hindlilər tikib .Onlar bura ziyarətə gəliblər hətta bəziləri burada qalıblar. Bizim bəzi böyük sənətkarlar həmin kökdən, həmin nəsildəndilər.

Sara xanım indiki Bakı Dövlət Universitetində fransız dilindən də dərs deyirdi. Hanı o müəllimlər?..

E.ə. IV əsrdə Platon adlı yunan tarixçisinin bir maraqlı fikri var idi. "Valideyn məni göydən yerə endirdi lakin müəllim məni yerdən göyə qaldırdı". Şərqin böyük mütəfəkkiri Sədi Şirazi isə deyirdi: "Bir gün şah oğlunun əlindən tutub mədrəsəyə apararkən ,gümüş lövhə üzərində bu sözlərə rast gəlir. Mən valideynin nəvazişindən çox, müəllimin tələbkarlığına borcluyam". Hər iki dövrün böyük alimləri Sara xanım kimi müəllimləri nəzərdə tuturdu.

Sara xanımın həyat yoldaşı Mövsüm bəy o dövrdə Tarix muzeyinin direktoru idi. Bir müddət sonra Mövsüm bəyi Sibirə sürgün eləmişdilər. Sürgündən qayıtdıqdan sonra Şirvanşahlar sarayına direktor təyin olunmuşdu. O dövrdə bizim münasibətimiz çox yaxşı idi. Hətta yaxınlığımız o həddə idi ki, mən O sürgündən



qayıtdıqdan sonra dəfələrlə deyərdim ki, Mövsüm bəy bəlkə yenidən Sara xanımla ailə qurasınız. Bu da mümkün olan bir hadisə deyildi.

Sara xanım mənim nəzərimdə necə biridir?

Mən onu görəndə artıq yetkin qadın idi. O, su sonası, ay parçası kimi idi. Ona baxdıqca baxmaq istəyərdin. Onun səsində təkrarsız melodiya, məlahət var idi. Çox sadə , səmimi bir qadın idi. Mən hələ o zaman çox gənc idim , onun mənə köməkliyi çox olub. Hər hansı materialın, mənbənin tapılmasında mənə köməklik göstərərdi və mən də oxuyub yararlanırdım.

Sara xanım haqqında çox danışmaq olar. Yenə də vurğulamaq istəyirəm ki, nə yaxşı ki, onu yad edirsiniz , onun ruhunu şad edirsiniz. Buna görə sizlərə yenidən öz dərin minnətdarlığımı bildirirəm. Ruhu şad olsun deyirəm!

**Kərim Şükürov**
*Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, tarix elmləri doktoru, professor*

# Dünya qadın tarixçiliyi: şəxsiyyət və əfsanə (Sara Aşurbəyli haqqında söz)

Dünyada ilk qadın tarixçi kim olmuşdur sualına cavab olaraq bildirilir ki, o, məşhur Çin tarixçisi Ban Qunun (32-92) bacısı Ban Çjao idi. Avropada ilk qadın tarixçi kimi Anna Komnina (1083-1153) qeyd edilir. Sovet və rus tarix elmində tarixi feminologiya və gender tarixinin banisi hesab olunan prof. N.L.Puşkaryova 1810-1917-ci illərdə Rusiya qadın-tarixçilərinə həsr edilmiş məqaləsində *(Пушкарева Н.Л. Женщины-историки в России 1810-1917 годов// Вестник Пермского Университета. 2012, Вып. 1(18)* tədqiqat probleminə uyğun olaraq Rusiyada da ilk qadın tarixçini müəyyənləşdirməyə çalışıb və bu prosesin nə qədər mürəkkəb olmasına baxmayaraq, bu sırada A.O.İşimovanın (1805-1881) 1830-cu illərdə "Uşaqlar üçün Rusiya tarixi hekayələrdə" *(История России в рассказах для детей)* kitabı ilə birinci olduğunu vurğulayıb. Qadın-tarixçilərə maraq o dərəcədə geniş hal alıb ki, 1999-cu ildə ABŞ-da qadın-tarixçilərin xatirələrindən ibarət toplu nəşr edilib. *(Voices of Women Historians. The Personal, the Political, the Professional. Indiana University Press, 1999).*

Təəssüf ki, indiyədək Azərbaycan tarix elminin tarixində *(Bu barədə bax: Şükürov K. Azərbaycan tarixi: Elmi-nəzəri və praktik problemləri. Bakı, 2004)* bu problem geniş tədqiqat obyekti olmamışdır. Buna baxmayaraq, biz qeyd edə bilərik ki, Azərbaycan tarix elminin inkişafında qadın-tarixçilərin özünəməxsus rolu olmuşdur. Bu tematikanı ümumi şəkildə xülasə etsək qeyd etmək



olar ki, Azərbaycanın qadın-tarixçiləri üçün məxsusi sahə mövzusu olmamış, onlar Azərbaycan tarixinin ən aktual mövzuları üzrə tədqiqatlar üzərində çalışmış, Azərbaycan tarix elminin beynəlxalq aləmdə nüfuz qazanmasına mühüm töhfə vermişlər. Bununla eyni zamanda, Azərbaycanın qadın-tarixçiləri tarixi tədqiqatlara nəfis bir harmoniya, estetika gətirmiş, onu daha oxunaqlı etmişdir. Onların içərisində Sara xanım Aşurbəylinin (1906-2001) adı böyük hörmətlə yad edilir. Sara xanımın kəşməkeşli həyatının çətin sınaqlarına rəğmən, ömrünün simvolu kimi Sədaqət hissini xüsusi qeyd etmək olar. Sevgisinə, ailəsinə, Vətəninə, tarixçi peşəsinə ...Sədaqət. Onun monoqrafiyalarının ithaflarına nəzər salaq: Bakı şəhərinin tarixinə həsr edilmiş kitabı *(Очерки истории средневекового Баку (VIII-начало XIX в.). Баку, 1964)* 1937-1938-ci illərin repressiyalarının qurbanı olmuş atası Balabəy Aşurbəyovun, Şirvanşahlar dövləti kitabı *(Ашурбейли С.Государство Ширваншахов (VI-XVI вв.). Баку, 1983)* 1941-1945-ci illər müharibəsi zamanı həlak olmuş qardaşı, hərbi həkim Rəşid Aşurbəylinin xatirəsinə həsr edilmişdir. Orta əsrlərdə Azərbaycanın Hindistanla əlaqələri kitabı *(Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку,1990)* isə 1984-cü ildə qətlə yetirilən İndira Qandiyə ithaf olunmuşdur. Bununla da ithaflar məntiqi məna kəsb edərək, Sara xanımın həyat baxışına da bir bitkinlik gətirmişdir.

Bir dəfə Bakı Dövlət Universitetinin tarix fakültəsində Sara xanımın hər üç kitabının redaktoru olmuş mərhum Ziya Bünyadov (1923-1997) ilə görüş keçirilərkən o deyirdi ki, alimlər çox kitab yazır, lakin onlardan yalnız biri onun ömür kitabı olur. O, "Azərbaycan VII-IX əsrlərdə" kitabını özünün ömür kitabı olduğunu bildirmişdir. Görəsən, Sara xanım hansı kitabını ömür kitabı hesab edirdi və yaxud, Ziya müəllimə Sara xanımın kitabları haqqında belə bir sual verilsə nə deyərdi? Təəssüf ki, indi bu suallara cavab tapmaq

mümkün deyildir. Əslində, bu kitablar Azərbaycanın ömür kitablarıdır, onun tarixinin bu və ya digər dövrünün salnaməsidir.

Tarixçi peşəsi haqqında yazılanlar içərisində əslən yəhudi olan məşhur Fransa tarixçisi, "Annallar" məktəbinin banilərindən olan Mark Blokun (1886-1944) "Tarixin mədhi və tarixçi peşəsi" kitabının xüsusi yeri vardır. *(Марк Блок. Апология истории, или ремесло историка. Изд. 2-е. М.,1986 ).* Bəzən tarixçilər bu kitabın adı üzərində ətraflı dayanır. Bu tamamilə haqlı bir yanaşmadır. Sara xanımın kitabları və ömrü də bu həqiqətin təsdiqidir. Onun yazdığı tarix ölkənin və xalqın "bərpa edilmiş" həyatıdır, bu isə tarixçinin əməyinin bəhrəsidir. Ona görə də cəmiyyətdə tarixçi və ya tarix müəllimin kəmiyyəti deyil, tarixçi peşəsinin stabil statusunun olması zəruridir. Bu isə yüksək səviyyəli peşəkar tarixçilərin şəxsiyyəti və yaradıcılığının nüfuzu ilə təmin edilə bilər.

Sara xanımın monoqrafiyaları və onlar qədər vacib olan məqalələrinin təhlili və dəyərləndirilməsi Azərbaycan tarixşünaslığının qarşısında duran vacib problemlərdəndir. Burada mən daha çox Sara xanımın əsərləri üşün xarakterik olan xüsusiyyətlərə diqqəti cəlb etmək istəyirəm.

Bu baxımdan ilk yerdə təbii ki, tarixi problemin seçilməsi gəlməlidir. Dünya tarixşünaslığı üçün keçərli olan bu hal, sovet tarixçisi üçün ilkinlik hüququnu itirir, çünki o zamanlar ilk yerdə ideoloji qəliblər gəlirdi. Sara xanımın kitablarının nəzərdən keçirilməsi sübut edir ki, o, bu ideoloji qəliblərdən yüksəkdə durmağı bacarmışdır. Həmin kitabların heç birinin nə girişində, nə də mətnində marksizm-leninizm klassiklərinə istinadla bu və ya digər müddəanın təsdiqinə təsadüf etmək mümkün deyildir.

Sara xanım tarixçilik nöqteyi nəzərindən çox mürəkkəb mövzuları tədqiqat obyekti kimi seçmişdir. Bakı tarixi və onunla sıx bağlı olan Şirvanşahlar dövlətinin tarixindən Azərbaycan-Hindistan münasibətlərinə keçilməsi buna sübutdur. Bu dərin intellektin,





yüksək təfəkkürün, ümumləşdirmə bacarığının kompleks şəkildə təzahürünün nəticəsidir.

Tarixçilər yaxşı bilir ki, tarixi tədqiqat üçün xronologiya ən başlıca şərtlərdən biridir. Mən düşünürəm ki, qısa dövrü əhatə edən tarixi tədqiqatlar daha çox icraçı tarixçilərin sahəsidir, uzun tarixi dövrün tədqiqi isə mütəfəkkir tarixçilərin (Elm tarixində bu generatorlar (elmi istiqamətlər və ideyalar verənlər) və icraçılar kimi ifadə edilir. Reallıqda hər ikisi də vacibdir.) qismətidir. Sara xanımın monoqrafiyalarının hər birinin xronologiyası orta əsrlər kimi geniş bir dövrü əhatə edir. Şirvanşahlar dövlətinə dair monoqrafiyasında yazır ki, biz qarşımıza Şirvan dövlətinin meydana gəlməsi, onun inkişaf mərhələlərinin izlənilməsi, çiçəklənməsi və süqutunun minillik dövr ərzində tədqiq edilməsi vəzifəsini qoymuşuq. *(Ашурбейли С.Государство Ширваншахов (VI-XVI вв.).,С.3)* Tarixi problemin belə geniş xronologiyada tədqiqi müəyyən ümumləşdirmələr ilə müşayət olunsa da, hadisələri uzun perspektivdə izləmək imkanı yaratmaqla, onun konkretliyi və ümumi qanunauyğunluğunu daha müfəssəl müəyyən etməyə imkan verir. Belə tədqiqatlar müntəxabati xarakter daşımaqla universal vəsaitə çevrilir və stolüstü kitab olur. Bu araşdırmalar dövrə dair tədqiqatlar sahəsində boşluqları ortaya çıxararaq, yeni istiqamətləri müəyyənləşdirir və tarixi tədqiqatlara ciddi təkan verir. Zənnimizcə, dünya qadın-tarixçiləri arasında bu miqyasda alim tapmaq çətindir və bu meyara görə Sara xanım daha çox dünyanın məşhur kişi tarixçiləri ilə müqayisə oluna bilər.

Tarixi əsərə dəyər qazandıran ən əsas məsələlərdən biri onun mənbə bazasıdır. Sara xanımın hər bir kitabı və məqaləsi arxeoloji, yazılı, numizmatik və epiqrafik abidələrin məlumatlarının peşəkarcasına toplanması, interpretasiyası və nəticələndirilməsinə dair örnək ola bilər. *Bu baxımdan onu həm də, mahir mənbəşünas* (Evliya Çələbi, Bakuvi haqqında məqalələri və s.) adlandırmaq olar. Onun bir sıra Şərq və Avropa dillərini bilməsi, əsərlərinin mənbə

bazasının daha da genişləndirilməsinə, tarixşünaslığının daha əhatəli olmasına imkan vermişdir.

Nəhayət, bir məsələ üzərində də dayanmaq istərdim: tarixçinin yaradıcılıq prosesi. Təbiət elmləri üçün elmi-tədqiqat laboratoriyası şərtdir. Laboratoriya-bu söz tarixçinin yaradıcılıq prosesi üçün yalnız məcazi məna daşıya bilər. Tarixçi onlarla müxtəlif tarixi faktları ağlında, beynində qarşılaşdırır, düzü-doğrunu tapmağa çalışır, bu hələ azdır, fikri nəticələr çıxarıb, onu düstur və formulalar ilə deyil, sözlərlə ifadə etməyə çalışır. Bu baxımdan Sara xanımın əsərlərini oxuyarkən onun hikmətli yaradıcılıq dünyasına daxil olmaq, onun açdığı fikir cığırı ilə irəliləmək, onun kodlarını açmaq, nəinki yeni tarixi tədqiqata başlayan gənc tarixçiyə, eləcə də istənilən peşəkara böyük zövq bəxş edir.

Azərbaycan tarixşünaslığından bəhs edərkən böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, tarixçilərin bir qisminin (çox maraqlıdır ki, onların arasında yüksək elmi dərəcələri olanlar, AMEA-nın müxbir və həqiqi üzvləri daha çoxdur) zəhməti hesabına başa gələn tarixə dair əsərlər zəmanə dəyşən kimi "elmi" dəyərini itirmiş, hətta xalqın tarixini təhrif etməsinə görə zərərli kitablara çevrilib, kitab rəflərində tozlanmağa məhkum olunmuşdur. Sara xanımın əsərləri isə zəmanənin sərt sınaqlarından uğurla çıxmış, müstəqillik dövründə də yenidən təkrar-təkrar nəşr edilmişdir. Böyük tarixçinin ömrünü verdiyi əsərləri onun vəfatından sonra müəllifin həyatını davam etdirməkdədir. Sara xanım bundan sonra da hələ neçə-neçə nəsillərin həmsöhbəti, tarixçilərin örnək mənbəyi olacaqdır.





**Fəridə Məmmədova**
*tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü*

# О Саре ханум Ашурбейли. Сара ханум Ашурбейли в истории Азербайджана

С известным мировой науке историком, востоковедом, гордостью азербайджанской науки Сара ханум Ашурбейли я познакомилась в восмидесятых годах прошлого столетия в институте А.Н. Азербайджана. Она была известным прославленным историком, востоковедом, владеющим многочисленными восточными и западными языками – фарсидским, арабским, французским, немецким, английским и русским. Она была хорошо эрудированным историком во многих периодах истории Азербайджана. Но особенной областью её исследований был период царствования Ширваншахов – VI –XVI вв. Как известно ,Сара ханум прошла очень сложный жизненный путь, творческий путь – путь становления историком. С приходом советской власти Сара ханум со своим семейством эмигрировала в Турцию, в Стамбул. Очень интересно, что этой эмиграции очень помог Нариман Нариманов. Как известно, в двадцатых годах секретарем ЦК Азербайджана был С.М.Киров и Н.Нариманов. Н.Нариманову стало известно, что Киров пытается репрессировать представителей Азербайджанской буржуазии – уничтожить Азербайджанскую интеллигенцию. Н.Нариманов активно и бесстрашно включился в процесс и спас Азербайджанских представителей. Он снабдил их нужной документацией, визой и

обеспечил их поездку в Турцию. В Турции Сара ханум, в отличии от сестер ,поступила во французскую гимназию, именуемую «Босоногии Кармелитки» (об этой гимназии упомянул в трудах Бальзак). Образование Сара ханум получила на французском языке. Мать Сара ханум болела, очень страдала астмой ,и по совету врачей семья Сара ханум вынуждена была вернуться в Баку. Здесь Сара ханум окончила исторический факультет Азербайджанского Государственного Университета, и начался её жизненный путь, усеянный нескончаемыми трудностями. Но на каждом трудном пути Господь щадил её и помогал трудоустроиться. Спасение её было ещё в том ,что она ,кроме диплома историка, блестяще владела иностранными языками, в особенности французским языком. Когда её снимали с работы как историка, она становилась преподавателем французского языка. Немалую роль в её спасении сыграл лучший представитель азербайджанской интеллигенции – великий Азербайджанский композитор Узеир Гаджибеков, пригласивший Сару ханум преподавать французским языком в консерватории, были и другие меценаты, их имён я не знаю. Если не ошибаюсь, Сара ханум через АН Азербайджана была командирована в Петербург – Ленинград, где зашитила кандидатскую диссертацию. Последующий период её творческой жизни я не знаю, когда она защитила докторскую диссертацию. В 1960 г. я пришла в институт истории, Сара ханум уже была известным историком, доктором исторических наук, специалистом по истории Азербайджана эпохи Ширваншахов. И с тех пор мы часто общались, в особенности на всесоюзных конференциях, где оба выступали с докладами. Я не знаю ,в силу каких причин Сара ханум очень серьёзно относилась к моему мнению – всегда хотела, чтобы я прочла её доклад и отметила замечания. Она была очень





подозрительной (видимо жизнь её выпестовала) и долгое время очень недоверчиво относилась ко мне; сама интересовалась моим мнением по тому или иному вопросу, не высказав своего мнения ,прислушивалась и всегда мне трудно было понять – разделяет ли она мое мнение или же нет. Её тянуло ко мне, я этим дорожила и гордилась.

Хочу напомнить об одном эпизоде ,рассказанным мне Сарой ханум. В Советском Союзе ,когда состоялся первый круиз советских туристов по Европе, Сара ханум Ашурбейли попала в эту группу. Последним пунктом этого круиза был Париж. Мер города Парижа устроил проводы советской делегации , пригласив их на банкет. Саре ханум было выручено от имени советской делегации выступит на банкете с благодарственной речью. Сара ханум в своём выступлении сказала, что прощание с Парижем никто лучше не скажет, чем сказала в своё время Мария Стуарт , отправлялась в Шотландию. Это прощание-целая элегия, и Сара ханум продекламировала эту элегию. Потрясённый мер Парижа отметил ,что эту элегию изучают в лучших гимназиях Парижа. Откуда такое знание у Сары Ашурбейли? Где она ознакомилась с этой элегией?! Сара ханум ответила с гордостью, что в Азербайджанском Государственном Университете , хотя реально она изучила эту элегию в Стамбульском лицее. Излишне подчеркнуть,что Сара Ашурбейли своим ответом хотела возвеличить Азербайджанский университет.

Сара Ашурбейли долгие годы работала, исследовав историю Ширваншахов, период правления которых представлял лакуну в истории Азербайджана. На изучение этой проблемы у нее ушли многие годы. Эту проблему могла осветить только она - помимо знания реалий периода, она владела многими языками и могла широко привлечь разноязычные источники. За

многолетней кропотливой работой Сары Ашурбейли ревностно следили многие историки средневекового периода,которые не владели языками восточных источников. Все эти историки во главе с директором института истории Академии Наук Азербайджана Играром Алиевым и его заместителем Махмудом Исмаиловым ополчились против Сары ханум и твердо решили не допустить публикации труда Сары ханум о Ширваншахах. С этой целью они созвали учёный совет, на который пригласили Сару ханум Ашурбейли с её трудом о Ширваншахах, по середине зала усадили Сару ханум на стул, а сами члены учёного совета буквально над ней учинили расправу: ей вменялось в вину, что она семь лет, получая зарплату доктора исторических наук, не даёт на обсуждение учёного совета (члены которого все были архизаинтерсcованы прочесть эту монографию, не без попыток плагиата) .Естественно Сара Ашурбейли, прошедшая тяжёлый жизненный путь, не могла допустить такого простодушия и доверчивости. Пытаясь сохранить свой труд от расхищения историков, она подготовила её к изданию и пыталась его опубликовать, минуя обсуждения учёного совета института истории. Но директор института истории И.Алиев и его заместитель М.Исмаилов ,которые были страшно заинтересованы в получении сведений о Ширваншахах, решили устроить-учинить над ней гражданский самосуд. Сара Ашурбейли держалась, как натянутая струна, не слова проронив в свою защиту. Положение спас Азербайджанский известный учёный-этнограф, ныне академик Теймур Буниадов, который опоздал на учёный совет и ,увидев это зрелище ,громко пристыдил всех членов учёного совета ,сказав на Азербайджанском языке: «Aya, aya, siz kimi müzakirə edirsiniz?!Siz onun ağarmış saçlarından utanmırsınız? Burda çıxış



197692



eliyənlərin kimin, hansının səviyyəsi Sara xanimin səviyyəsinə çata bilər?! Kim bu cəsarəti boynuna götürə bilər?». Эти слова поддержки вывели Сару ханум из равновесия, и в рыданиях она выбежала из зала, я последовала за ней, ей стало плохо, я уложила её на диван в вестибуле и вызвала скорую.

Сару ханум тянуло ко мне, и я этим очень гордилась…

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Əli Rəcəbli
*tarix elmləri doktoru, professor*

## Elmə həsr olunmuş həyat

Yüzillik zaman meyarı yetərlidir ki, hər hansı bir ictimai xadimin, özəlliklə, bilim adamının enişli-yoxuşlu yaşam yolunu, yaradıcılıq uğurlarını nəzərə salıb, onu dəyərləndirə biləsən. Bu yolda külüng çalanlar çox , işıq saçanlar isə az... Birincilərin əsərləri rəflərdə toz altında, ikincilərinki masalar üstündə. Sara xanım Aşurbəyli o bilginlər pleyadasına mənsubdur ki, yazıb-yaratdıqlarına sonsuz ehtiyac duyulur, onlar həmişə oxunur, zaman keçdikcə yeri daha çox görünür.

Aşurbəylər soyunun son və mətin təəssübkeş qadını, yüksək intellekt və ensiklopedik məlumat sahibi olan Sara xanımın yaradıcılıq spektrı çox geniş və rəngarəngdir. Vətənə olan bağlılığı onu Klionun ləyaqətli təmsilçisi səviyyəsinə qaldırmış və o, bütün şüurlu ömrünü vətən tarixinin öyrənilməsinə həsr etmişdir. Onu demək kifayətdir ki, ortaçağlar tarixinin ən önəmli , lakin mənbəşünaslıq baxımından həlli olduqca çətin və mürəkkəb görünən problemlərindən biri- Bakı şəhəri və paytaxtı Bakı olan minillik Şirvanşahlar dövlətinin tarixi problemlərinin həlli Sara xanımın adı ilə bağlıdır. Onun çeşidli arxeoloji, etnoqrafik, numizmatik, epiqrafik artefaktlar və ərəb-fars-türk dilli yazılı qaynaqlar üzərində apardığı son dərəcə əziyyətli və dəqiq araşdırmalar nəticəsində ərsəyə gətirdiyi və elmi yaradıcılığının şah əsərləri sayılan "Bakının ortaçağlar tarixi oçerki- VII-IX yüzillər" və "Şirvanşahlar dövləti" adlı monumental monoqrafiyaları müəllifin ana yurduna, ata ocağına olan sonsuz sevgi və sayqısının məhsuludur desək, yəqin ki, yanılmarıq.





Sara xanımın müşahidə və maraq dairəsi də çox geniş idi. O, eyni zamanda gözəl rəssam , poliqlot- mütərcim, bəlağətli natiq və mehriban müsahib idi. O, orta və ali təhsil müəssisələrində dərs demiş, inzibatı vəzifələrdə çalışmış, rəssamlıq məktəbində xarici dil kurslarında oxumuşdur.

Sara xanımla yaxından tanışlığım və ünsiyyət bağlamağım AMEA-nın Milli Azərbaycan Tarixi muzeyində baş verdi. 1953-cü ildə muzey indiki binasına köçdükdən sonra burada əsaslı reekspozisiya işlərinə hazırlıq gedirdi. "Neft maqnatının qızı" kimi bütün həyatı boyu haqsızlıq, etinasızlıq və bəzən açıq bədxaxlıq və qərəzli münasibətlə qarşılaşan Sara xanımın (burada dıgər Sara xanımı- H.Z.Tağıyevin qızı Sara xanımı necə xatırlamayasan?! ) yüksək mənəvi-elmi keyfiyyətlərinə və bədii zövqünə bələd olan və o zaman Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində işləyən xalq şairi Səməd Vurğunun təşəbbüsü ilə ("zər qədrini zərgər bilər") Sara xanım muzeyin qədim və orta əsrlər tarixi şöbəsinin müdiri vəzifəsinə təyin olunur. Rəhbərlik etdiyi şöbənin gənc və savadlı əməkdaşlarına rəğbətlə yanaşan Sara xanımla tez-tez Muzey ekspozisiyasını dolaşır, geniş dünyagörüşü və erudisiya sahibi olan Sara xanım mövcud ekspozisiyanın çatışmamazlıqlarını qeydə alır, onu nə ilə və necə zənginləşdirmək üçün öz təklif və mülahizələrini yerindəcə bizimlə bölüşürdü. Sara xanımın muzeydə çox da uzun sürməyən elmi fəaliyyətindən yadigar qalan ən önəmli nailiyyətlərdən biri (onun "Yaylaq və qışlaq" rəngli tabloları Muzeyin ortaçağlar ekspozisiyasında nümayiş etdirilirdi) akademik Əbdulkərim Əlizadə ilə birlikdə tərtib etdikləri muzeyin mövzu - espozisiya planı oldu. Bu plan əsasında Muzey ekspozisiyası yenidən quruldu və XXI yüzilin astanasına qədər öz fəaliyyətini davam etdirdi.

Son olaraq, bir numizmat kimi, qeyd etməliyəm ki, istər Muzeydə işlədiyi dönəmdə, istərsə də sonralar, öz elmi fəaliyyətini

davam etdirərkən, Sara xanımın Azərbaycanın zəngin numizmatik irsinə olan hədsiz marağı , məlum numizmatik ədəbiyyatla kifayətlənməyib də sikkələri öz əlinə alıb, onları diqqətlə nəzərdən keçirməsi məni yaxşı mənada heyrətləndirirdi. Ümumiyyətlə, böyük məmnuniyyət hissi ilə deməliyəm ki, Sara xanım yeganə uzman Azərbaycan tarixçisidir ki, öz elmi yaradıcılığında numizmatik faktlara dəyərincə önəm verərək, onlardan yerli-yerində bəhrələnmişdir. “Numizmatika tarix elmində riyaziyyatdır” ifadəsi də ona aiddir.

Sara xanım öz mənalı həyat yolu zəngin və dəyərli elmi yaradıcılığı ilə ən məruf Azərbaycan tarixçiləri kəhkaşanında parlaq bir ulduz, təkcə özünə məxsus yeri olan nəcabətli, ziyalı bir türk xatunu idi. Elmi əsərlərindən başqa Sara xanım bizə əsl intelligent, həyatsevər gözəl insan, böyük vətəndaş kimi çox dərin və əbədi bir xatirə qoyub getdi. Allah qəni-qəni rəhmət eləsin!





**Nərgiz Quliyeva**
***tarix elmləri doktoru, professor***

## Sara xanım Aşurbəyli görkəmli tarixçi, ölməz insan idi

Bəşər tarixində elə insanlar olur ki, hər yada düşdükcə onların adı xoş xatirələrlə anılır, insanların yaddaşında olan təəssüratları hər zaman insanlıq nümunəsi, başqalarına örnək kimi göstərilir. Belə insanlardan biri də tanınmış tarixçi alim, şəxsiyyətinə hörmətlə yanaşdığım, tarix elmləri doktoru, professor Sara xanım Aşurbəylidir.

Sara xanım dərin elmi araşdırmaları ilə Azərbaycan ictimaiyyətində əsl insani keyfiyyətlərə malik zəhmətkeş alim kimi tanınmışdı.

Uşaq kimi kövrək, polad kimi möhkəm idi Sara xanım. Axı, hər bir xalqın tarixini hərtərəfli və dərindən öyrənmək üçün müxtəlif mənbəələrdən istifadə olunur. O, müxtəlif xarici dilləri bildiyi üçün mənbələrdən sərbəst istifadə edirdi.

1906-2001-ci illərdə yaşayıb yaratmış tarixçi rus, ingilis, alman, ərəb, fars, türk dillərini sərbəst bilən, rəssam, pedaqoq kimi fəaliyyət göstərən, bir neçə kitabları tərcümə edən, müxtəlif dövlət mükafatlarına, orden və medallara layiq görülmüş Sara xanım Aşurbəylinin 120-dən çox məqaləsi və elmi monoqrafiyaları – «Orta əsrlər Bakısının tarixi oçerkləri» (VIII-XIX əsrlərdə) Bakı, 1964, «Şirvanşahlar Dövləti», Bakı, 1983, «Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri» Bakı, 1990, «Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü» Bakı, 1992, həmçinin əlyazması Tarix İnstitutunun Arxivində saxlanılır.

Sara xanım haqqında xeyli yazılar və materiallar da diqqəti cəlb edir: Azərbaycan Sovet Ensiklopediyası, I cild, B., 1976, səh. 516; Sara xanım Aşurbəyli – 90 il. «Kim kimdir», 1996, №3; Sabir Gəncəli. Qadın, gözəllik və ülviyyət. Ensiklopedik toplu. B., 2001, səh. 236; AR Dövlət Arxivi, fond 387, siyahı 2, d.ba, v.2, iş 30, v.23; Materiallar S.Aşurbəylinin qohumu Ramiz Aşurlu tərəfindən təqdim olunmuşdur.

Yaxşı yadımdadır ki, Tarix İnstitutunun əyani aspirantura şöbəsinə imtahan verib qəbul olunmuşdum. Böyük alimlər bizi təbrik edirdilər. Mehriban, bəstəboy, xoşsifət, gülərüz Sara xanım Aşurbəyli də məni təbrik edib, elm yollarında uğurlar arzuladı. Bu gün mənim Sara xanım ilə ilk ünsiyyətim idi.

Sara xanımla sonralar tez-tez görüşürdüm. Hər dəfə də o mənə elmin uğurlu yollarında inamlı gələcək arzulayırdı.

Sara xanımın sözləri hələ də məni elm yolunda ruhlandırır. Bir dəfə mənimlə söhbətində dedi ki, qızım möhkəm ol, elm möhkəm olanları sevir.

Sara xanımın bacıları onunla bərabər işə gələrdilər. Birlikdə mehribancasına dayanar, gedərdilər. Qibtə olunacaq qədər səmimi, həyatsevər, kübar, ziyalı idilər.

Ağ saçlı, gülərüz Sara xanımın 27 yanvar 1996-cı ildə Bakıda M.F.Axundov adına Opera və Balet Teatrında 90 illik yubileyi qeyd olunurdu. Bu yubiley mənim üçün bir də ona görə yaddaqalan idi ki, Ulu Öndərimiz Heydər Əliyev yubileydə iştirak edirdi. Sara xanımla bərabər əyləşmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubilyarı şəxsən təbrik edərək, ona şöhrət ordeni təqdim etmişdi.

Yubileydə iştirak edənlərin bir qrupu çıxış etdilər. Onun elmi yaradıcılığından hərtərəfli bəhs etdilər. Akademik Ziya Bünyadov da Sara Aşurbəylinin fəaliyyətindən ətraflı danışdı. Onun elmi fəaliyyəti, çoxlu dil bilməsi, rəssamlıq fəaliyyətindən məlumat verdi





və o, Sara xanıma baxaraq dedi: «Sara xanım Sizə baxanda insan yaşamaq istəyir. Deməli, bu qədər sağlam yaşamaq olarmış».

O, 1993-cü ildən ömrünün sonuna qədər Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi əməkdaşı işləmişdir. İnstitutda Sara xanımla hər dəfə üz-üzə gələndə o səmimi baxışı, xəfif çöhrəsi, xoş nəzərləri ilə işlərimi soruşardı, hər dəfə də möhkəm ol, həyat mübarizədir deyərdi.

2006-cı il 27 yanvarda Sara xanım Aşurbəylinin 100 illik yubileyi qeyd olunarkən onun Azərbaycan xalqına hədiyyə olaraq qoyub getdiyi misilsiz tarix xəzinəsi olan «Şirvanşahlar dövləti» və «Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü» əsərləri iştirakçılara təqdim olundu.

Bu kitabları qürur hissi ilə almaq və şəxsi kitabxanamda saxlamaq mənim üçün iftixar mənbəyidir. Həmin gün Sara xanımın 110 illik yubileyi qeyd olunarkən iştirakçılar bu kitabları bir daha vərəqləyir, *Ulu Tanrıdan* Azərbaycan xalqının fəxri, Azərbaycanın əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, Azərbaycan Dövlət Mükafatı laureatı, A.Bakıxanov adına Dövlət Mükafatı Laureatı, Xalqlar Dostluğu ordeni kavaleri - Sara xanım Bala bəy qızı Aşurbəylinin mənalı ömür yoluna heyranlıqla baxırdılar.

Əlbəttə, Sara xanım Aşurbəylinin şəxsiyyəti və gördüyü işlər, xalqına ərmağan etdiyi zəngin elmi mirası heç vaxt unudulmaz və yaddan çıxmaz. Qəbri nurla dolsun, ruhu şad olsun Azərbaycan qızının.

**Şahin Fazil**
*tarix elmləri doktoru, professor*

## Nəslinin şöhrətli təmsilçisi olan Sara Aşurbəyli haqqında bəzi qeydlərim

Mən bu məqaləmə Aşurbəyovlar nəslinin bu günkü təmsilçilərindən olan İqor Aşurbəylinin hazırlayıb çapa təqdim etdiyi və oxucuların istifadəsinə verdiyi «Şirvanşahlar dövləti» (Sara xanım Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, 2006) adlı monoqrafiyanın nəzərimi özünə cəlb edən ilk cümlələri ilə başlamaq istəyirəm. İqor Aşurbəyli 300 illik nəslin şöhrətli təmsilçisi olan S.Aşurbəyli haqqında ürək sözlərini belə bildirir.

«Artıq 300 ilə yaxındır ki, Aşur xan Əfşarın nəsli öz talelərini qədim Abşeron torpağı ilə bağlamışdır. Aşur bəyləri, Aşurbəyovlar, Aşurbəylilər, Aşurlular Azərbaycanın tarix salnaməsinə çoxlu işıqlı səhifələr yazmışlar. Sara xanım Aşurbəyli – bu nəslin ən şöhrətli təmsilçilərindən biri – Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin tarixinin ümumilli səviyyədə dərkində özünün şəxsi və gerçəkdən misilsiz töhfəsini vermişdir.

Asan olmayan, bəlkə də faciəli bir tale nəsib olmuş Sara xanım orta əsrlərdə Abşeronun fundamental araşdırıcısı olaraq Şərqdə yaxşı tanınır. Bu yolda ona təkcə parlaq analitik təfəkkürü və kamil təhsili deyil, həm də yeddi dil – ərəb, fars, fransız, alman, ingilis, rus və Azərbaycan dillərini bilməsi kömək etmişdir.

Sara xanım Aşurbəylinin elmi monoqrafiyaları – «Orta əsrlər Bakının tarixi oçerki», «Şirvanşahlar dövləti», «Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri», «Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü» hələ müəllifin sağlığında Azərbaycan tarixinə dair klassik əsərlər sırasına daxil olmuşdur. Bununla belə öz əsilzadə mənşəyinə və tarixə sinfi baxışı barədə o zamankı rəsmi elmi yanaşmaya şərik çıxmadığına görə Sara xanım Vətənində heç vaxt hakimiyyətin hüsn-rəğbətini hiss etməmişdir. Lakin hər halda, o, doğma Bakıda, yaxud özünün dediyi kimi, Tanrının şəhərində asan sayıla bilməyəcək olan mühacirət həyatı yaşadı.

Nəhayət, budur, 1996-cı il, yanvarın 27-də – Sara xanım Aşurbəylinin 90 illiyi günündə yeni Azərbaycanın bütün elitası M.F.Axundov adına Opera və Balet Teatrına yubilyarı təbrik etmək üçün yığışmışdılar. Ağzına qədər dolmuş zalda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubilyarı şəxsən təbrik edərək, ona Şöhrət Ordeni təqdim edir. Sara xanım üçün bu yəqin ki, onun uzun illər ərzində gözlədiyi bir an idi. Bəlkə də bu anı bütün ömrü boyu gözləmişdi. Dövlətin və cəmiyyətin ona lap çoxdan layiq olduğu qiyməti verdiyi an idi. Sara xanım Aşurbəylinin kitabları – tariximizin qədim çağlarının təməl daşıdır, onun Azərbaycan xalqına hədiyyə olaraq qoyub getdiyi misilsiz tarix xəzinəsidir.

Mənə 1970-ci ildən başlayaraq ömrünün sonunadək 30 ildən çox müddətdə Sara xanımla Elmlər Akademiyasının Tarix İnstitutunun Orta əsrlər tarixi şöbəsində işləmək şərəfi qismət olmuşdur. Mən bu vaxt ərzində, əlbəttə, bu xeyirxah alimin gənc tədqiqatçılara təmənnasız münasibətinin şahidi olmuşam. Həm də qeyd etməliyəm ki, mənim «Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə» adlı tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyim dissertasiyanın rəsmi opponenti məhz Sara xanım Aşurbəyli olmuşdur (1996).

Sara Balabəy qızı Aşurbəyli haqqında Azərbaycan Sovet Ensiklopediyasında olduqca qısa məlumat vardır, halbuki bu mürəkkəb, təzadlarla dolu və yaradıcı qadının həyatı bir qədər geniş işıqlandırıla bilərdi. Məlumatda oxuyuram:

«Aşurbəyli Sara Balabəy qızı (d. 27.01.1906, Bakı) – sovet tarixçisi, tarix e.d. (1966). Azərb. Rəssamlar İttifaqının üzvü (1946),

İstambulda Janna d'Ark adına fransız kollejini (1925), ADU-nun Şərq fakultəsini (1930), V.İ.Lenin adına APİ-nin Xarici Dillər fakültəsini (1941) bitirmişdir. 1973-58-ci illərdə respublikanın ali məktəblərində fransız və ingilis dillərindən dərs demişdir. Azərb. SSR Tarix Muzeyində orta əsrlər şöbəsinin müdiri (1954-58), Azərb. SSR EA Şərqşünaslıq İnstitutunda elmi katib və baş elmi işçi (1958-61) işləmişdir. 1961-ci ildən Azərb. SSR EA Tarix İnstitutunun baş elmi işçisidir. Əsasən orta əsr Azərb. şəhərlərinin tarixini öyrənir. Məqalələri ingilis, fransız və s. dillərdə dərc edilmişdir. A. bir sıra boyakarlıq əsərinin də müəllifidir». Vəssalam! O böyük alim haqqında ASE-nin məlumatı bu qədərdir.

Mən S.Aşurbəyli ilə işlədiyim dövrdə həmişə onun qayğısını hiss etmişəm. Olduqca savadlı, ziyalı, xeyirxah və mətin bu qadın əyilməz və dönməz idi, «sosializm realizmi» adlanan məfkurəyə qarşı laqeyd idi, əsərlərində marksizm-leninizm cərəyanı adlanan nəzəriyyə müəlliflərinin əsərlərindən sitatlar gətirməz, iqtibaslar verməzdi. Öz əqidəsi olan məğrur bir tədqiqatçı, şablon fikir və düşüncələrdən kənar bir alim, tərifçilikdən aralı duran bir mütəfəkkir!

Yadımdadır, namizədlik dissertasiyam olan XVI əsr Azərbaycan tarixçisi Həsən bəy Rumlunun fars dilində yazdığı «Əhsənüt-təvarix» («Tarixlərin ən yaxşısı») adlı məşhur tarixi qaynağın materialları haqqında avtoreferat hazırladığım vaxtlarda o zaman institutumuzun direktoru olan mərhum professor Cəmil Quliyev məni yanına çağırıb avtoreferata L.İ.Brejnevdən sitat gətirməyimi qətiyyətlə məsləhət gördü. Dedim:

-Leonid İliç Brejnev Həsən bəy Rumlu haqqında heç nə deməmişdir.

C.Quliyev fikrində israr etdi:





– Həsən bəy Rumlu haqqında Brejnevin məlumatı olmasa da, Vladimir İliç Lenin yoldaşın tarix elmi haqqında qiymətli fikirləri vardır. Sən həmin fikirlərin heç olmasa birini avtoreferata sal.

Kabinetdən xeyli pərt halda çıxdım. Axı mən haradan tapım Lenin yoldaşın tarix haqqında dediyi tarixi fikirlərdən heç olmasa birini?

Köməyimə aspirantura yoldaşım olmuş Zabil İsayev çatdı. O, ertəsi gün V.İ.Lenindən belə bir misal gətirdi: «Marksizmin bütün ruhu, onun bütün sistemi belə tələb edir: hər hansı bir məsələyə yalnız a) tarixi; b) yalnız başqa məsələlərlə əlaqədə; c) yalnız tarixin konkret təcrübəsi ilə əlaqədar baxmaq lazımdır».

Beləliklə, Zabil mənim dadıma yetişdi. Xatırlatmaq istərdim ki, o vaxtlar Azərbaycan dilində yazılan bütün dissertasiyaların avtoreferatı rus dilində çap olunmalı idi. Buna görə də mən V.İ.Leninin tarix elmi ilə bağlı fikrini avtoreferatımın ilk səhifəsində verməli oldum. Nə edəydim gərək? Müdafiə etmək və maddi vəziyyətimi bir qədər yaxşılaşdırmaq lazımdı. Amma, tədqiqatçılar qarşısında qoyulan belə bir tələb Sara xanım Aşurbəylinin heç vecinə də deyildi və onun əsərlərinin heç birində marksizm-leninizm klassiklərinin «qiymətli fikirlərindən» əsər-əlamət yoxdur!

Belə məğrur qadın idi Sara xanım!!!

Yuxarıda yazıldığı kimi, S.Aşurbəyli bir neçə fundamental monoqrafiya müəllifidir. Kiçik bir məqalədə onun bütün əsərləri haqqında məlumat verməyin mümkün olmadığını bilib, yalnız bir kitabı – içərisində Şirvanşahlar Saray Kompleksinin mövcud olduğu minillik hakimiyyətdə olmuş Şirvanşahlar dövlətinə həsr etdiyi «Şirvanşahlar dövləti» kitabı haqqında bir qədər geniş məlumat verməyi qərara aldım.

Bu qiymətli əsərin **«Şirvanşahlar dövləti VI əsr – IX əsrin birinci yarısında» adlı I fəsli** məxəzlərin və ədəbiyyatın qısa xülasəsinə həsr olunmuşdur. Bu fəsildə qeyd olunur ki, əsər antik

(yunan, latın) Azərbaycan, erməni, gürcü, ərəb, fars, türk, Suriya, rus və Qərbi Avropa (fransız, ingilis, alman, italyan) mənbələrinin verdiyi məlumatlar əsasında yazılmışdır. Müəllif o cümlədən Movses Kalankatlının 3 hissədən ibarət «Alban tarixi», erməni müəllifləri Yeğişenin, Favstos Buzandın, Gevondun, habelə gürcü məxəzləri «Kartlis tsxovreba» və «Hökmdarın vəsfi» kitablarından istifadə etməli olmuşdur. Sara xanımın müraciət etdiyi ərəb müəllifləri isə bunlardır: əl-Bəlazuri, əl-Yəqubi, əl-İstəxri, əl-Məsudi, Əbu Düləf, Əbu Hamid, əl-Əndəlusi, əl-Qərnati, Yaqut Həməvi və başqaları. Fars dilində kitablar yazmış Məhəmməd ibn Nəcib Bəkran, Həmdullah Qəzvini, Rəşidəddin, Həsən bəy Rumlu, Şərəf xan Bidlisi, Fəzlullah Xunci, Qiyasəddin Xandəmir, İsgəndər bəy Münşi, Abdullah ibn Kiya əl-Mazandarani, Şeyx Səfiəddin, Kəmaləddin Əbdürrəzaq Səmərqəndi, Şərəfəddin Əli Yəzdi, türk tarixçisi İbrahim Peçəvi, suriyalı müəlliflər Miletli Zəkəriyyə, Suriyalı Mixail və Bar Ebrey də Sara xanımın diqqətini özünə cəlb etmişdir. Rus səyyahı Afanasi Nikitin, ingilis tacirləri Cenkinson, Deket Ceffri, italyan səyyah və diplomatları Marko Polo, Barbaro, Kontarini, Anciolello, Donato de Leze və başqaları da «Şirvanşahlar dövləti» kitabının yazılışı üçün əsas mənbə müəllifləri rolunu daşımışlar.

İndi görək tarixşünaslıq baxımından hansı alimlər bizim müəllifə kömək göstərə bilmişlər. Siyahı uzun olacaq: K.Trever, V.Bartold, İ.Kraçkovski, İ.Petruşevski, V.Dorn, N.Xanıkov, V.Minorski, Hadi Həsən, Bəkir Kütükoğlu, S.Yeremyan, Ş.Mesxia, R.Kiknadze, N.Şengeliya, V.Kotoviç, Ə.Şıxsəidov, A.Kudryavtsev, Y.Paxomov, Ə.Əlizadə, Z.Bünyadov, O.Əfəndiyev, İ.Cəfərov, S.Qazıyev, Ə.İsmizadə, Ciddi, Ə.Rəhimov, M.Seyfəddini, Ə.Ələsgərzadə, M.Nemətova, S.Kərimzadə, S.Dadaşova, M.Hüseynov, L.Bretanitski, Ə.Salamzadə və s.

«Şirvanşahlar dövləti» monoqrafiyasının **«Şirvanşahlar dövləti VI əsr – IX əsrin birinci yarısında» adlanan ikinci fəsli** beş yarımfəsildən ibarətdir: **I yarımfəsil** Şirvanın tarixi-coğrafi xarakteristikasına həsr olunmuşdur. Burada «Şirvan» toponiminin izahı verilmiş, Şirvan vilayətinin sərhədləri müəyyənləşdirilmiş və göstərilmişdir ki, VII əsrin əvvəllərində bu vilayətin ərazisi Dərbənddən Qafqaz sıra dağları boyunca Xursan dağına, oradakı Xursan qalasına, Xurs ölkəsinin (İndiki Xızı rayonu) sərhədlərinədək, ehtimal ki, Abşeron da daxil olmaqla Kür çayının mənsəbinədək uzanırdı. Sonra sərhəd istehkamlarından, sərhəd keçidlərindən, Şirvandakı çaylardan (Pirsaat, Ağsu, Girdman, Göyçay, Türyançay, Əlicançay, Rubas, Gülkəri, Samur, Qudyalçay, Qaraçay, Vəlvələçay, Gilgilçay, Ataçay və Sumqayıtçay) bir qədər bəhs olunur və müəllif daha sonra yazır: «Min il ərzində (VI-XVI əsrlər) qədim Şirvanşahlar sülaləsinin vilayətinə bərəkətli məhsuldar düzənliklər, gözəl otlaqları, çəmənlik və meşələri olan ovlaqlar daxil idi. Burada heyvan bəsləyir, taxıl becərirdilər. Kənd təsərrüfatı inkişaf etmişdi. Meyvə bağları var idi. Kür çayının və dənizin yaxınlığı əhalini qiymətli balıq növləri ilə təmin edirdi. Şirvan torpağı neftlə, duzla, müxtəlif faydalı qazıntılarla – qiymətli metallarla, minerallarla, gillə zəngin idi.

Bu fəslin **ikinci yarımfəslində** Şirvan əhalisinin kimlərdən ibarət olduğu ön plana çəkilir.

Bu kiçik ölkədə kimlər yaşamışlar İlahi? Müxtəlif oturaq və köçəri tayfalar, Qafqaz və türkdilli qəbilələr. Hunlar, təvəsparlar, xeçmataklar, ijmaxlar, balasacilər, diyarın avtoxun əhalisi olan ləklər, hunlar, xəzərlər, zekenlər (tsekanlar), xenuklar (xenavilər), kaspilər, şərvanlar («şərman» istilahı «şirvan» sözünə dəlalət etmirmi?), xursanlar, təvəsparlar, xeçmataklar, ijmaxlar, bakanlar, pikonaklar (peçeneqlər), maskutlər və başqaları. VII-IX əsrlərdə Qəbələyə, Muğana girən sabirlər və bulqarlar da Şirvan toponimikasında yəqin ki, öz izlərini qoymuş və onların bir qismi bu

torpaqda məskunlaşmışlar. S.Aşurbəyliyə görə, yuxarıda adı çəkilən zekenlər (tsekanlar) ehtimal ki, Şəki vilayətinin əhalisi-şəkililərdir.

Bu fəslin **üçüncü yarımfəsli** Şirvanın şəhər və kəndləri haqqında oxucuya geniş məlumat verir. Müəllif Böyük Plini adlı yunan müəllifinə (23-79-cu illər) əsaslanaraq Albaniyanın əsas şəhərinin Kabalaka olduğunu yazır. Başqa yunan coğrafiyaşünas Ptolomey (70-147-ci illər) Qafqaz Albaniyasında 29 şəhər və kəndin olduğunu bildirir ki, onların arasında Xabala, Moseqa, Alban, Samexiya (Kamexiya), Ketara, Baruka və başqaları vardır.

VII əsr məxəzində (Yaqut Həməvi) Samur və Gilgilçay arasındakı düzənlik Mazkutk (Məsqət, Müskür) adlanmışdır.

Massaget Arşakiləri hökmdarlığı 510-cu ildə Sasanilər tərəfindən məhv edildikdən və Albaniyada hökmdar hakimiyyətinə son qoyulduqdan sonra Şirvan vilayətində Şabrançay və Gilgilçay arasındakı ərazidə Şirvanşahlar dövləti adlanan kiçik siyasi qurum meydana gəldi. Onun şimal sərhədi Dərbənd idi. Sonralar Məsqət vilayəti, X-XI əsr ərəb müəlliflərinə görə Samur çayı, Xəzər dənizi, ləkxlər (ləzgilər) ölkəsi və Şəbəranla məhdudlaşır, başqa sözlə indiki Quba rayonunun cənub və şimal hissəsinə müvafiq gəlirdi. Həmin dövrdə Şirvan ərazisində yaşayan müxtəlif əhali qatları (tayfaları) olmuşdu: Qafqaz qatı, irandilli qat, skif tayfaları, kürdlər, savirlər (sabirlər), anqarlar, alanlar, avarlar, dirmarlar, sirniqurlar, baqrasiklər, kulaslar, abdellər, eftalilər məskunlaşmışdılar. Amma, mənbələrə əsasən erkən orta əsrlərdə Şimali Qafqazda türkdilli tayfalar və ərəblər də mövcud olmuşdur.

Mitilenli Zəkəriyyənin (555-ci il) salnaməsində «bu şimal məmləkətində 24 yepiskopu olan 5 mömin xalqın yaşadığı» bildirilir.

Mənbələrdə Şirvanın şəhərləri haqqında olduqca dağınıq və cüzi məlumat verilir, lakin məlumdur ki, Azərbaycan və Şirvanın bir sıra şəhərləri V-VI əsrlərdən xeyli əvvəl mövcud olmuşdur.



Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

Son onilliklərdə aparılan arxeoloji işlər nəticəsində Şirvan bölgəsində Şamaxı rayonundakı küp qəbirlər mədəniyyətinə aid şəhər yeri, Şamaxıdan 1 km. şimalda Kür-Araz mədəniyyətinə aid Pirdirəyi məskəni, İsmayıllı rayonunun Mollaisaqlı kəndində antik dövrə aid zəngin abidələr, Muğanda, Qusar və Dəvəçi rayonlarında erkən orta əsrlərə aid bir sıra şəhər və kənd yerləri aşkar edilmişdir. Bütün bunlar qədim dövrlərdə və erkən orta əsrlərdə həmin yerlərdə və bütünlüklə Şirvan vilayətində məhsuldar qüvvələrin, maddi mədəniyyətin yüksək səviyyəsini, şəhər həyatının inkişafını təsdiq edir.

II fəslin **dördüncü yarımfəslində** erkən Şirvanşahların və Şirvanın ərəblər tərəfindən istilasından və onun nəticələrindən danışılır. Müəllif yazır: «**Şirvanın ilk istilası dövründən (VII əsrin I yarısı)» IX əsrin I yarısınadək ərəblər Şirvanşahları xəlifəyə xərac verən və xəzərlərə qarşı yürüşlərində iştirak edən vassallar *kimi hakimiyyətdə saxlamışlar***.

«Köçəri şimal tayfalarının Şirvan və Arrana gəlmələrinə dair» adlanan **beşinci yarımfəslin** əvvəlində köçəri türk tayfalarının eramızın ilk əsrlərində Qafqaz Albaniyası ərazisinə gəlmələrinin «Azərbaycan xalqının etnogenez probleminin araşdırılması üçün mühüm əhəmiyyətə malik olub, qədim Azərbaycanın türkləşməsi məsələsilə sıx bağlı olduğunu» yazır.

Kitabda oxuyuruq: «Hunların, onqurların, bulqarların, savirlərin və xəzərlərin Albaniyaya gəlmələri və buraya hücumları haqqında bir sıra orta əsr müəllifləri bəhs etmişlər».S.Aşurbəyliyə görə, Azərbaycan toponimikasında və hidronimikasında türk ünsürlərinin mövcudluğu və arxeoloji məlumatlar müxtəlif türk tayfalarının Şirvana və Arrana gəlmələri ölkədə erkən orta əsrlər dövründən, eramızın ilk əsrlərindən və VI-VIII əsrlərdə daha intensiv şəkildə türkləşmə prosesinin getdiyini göstərir.

**Qədim Şirvanın incəsənəti adlanan altıncı yarımfəsildə** incəsənətin Şirvanda inkişafı, təbii ki, ön plana çəkilir. Burada qədim Qobustanın təsviri sənəti-qapı təsvirləri, Şirvan ərazisində insanı təsvir edən monumental daş heykəllər haqqında əhatəli məlumat əsas yer tutur.

**III fəsil** ümumilikdə Məzyədi Şirvanşahlar dövlətinə (IX əsrin ikinci yarısı – XI əsrin birinci rübü) həsr olunmuşdur. Burada məzyədi ərəblərin hökmranlığından, Əbu Tahir Yəzidin xilafəti dövründə Azərbaycanda Sacilər sülaləsinin hakimiyyətinə son qoyulmasından, Şirvanın şəhər və kəndlərindən, iqtisadi vəziyyətdən ətraflı söhbət gedir.

**IV fəsil** «Şirvanşahlar dövləti XI-XIV əsrlərdə» adlanır, orada I Fəribürz, II Məhəmməd ibn I Fəribürz, I Əfridun ibn I Fəribürz, II Mənuçöhr ibn Əfridun, Əfridun ibn III Mənuçöhr, I Asitan ibn III Mənuçöhr, Şahənşah II Fəribürz ibn II Əfridun, I Fərruxzad ibn III Mənuçöhr, I Çərşəsb ibn Fərruxzad, III Fəribürz ibn I Çərşəsb, II Axsitan ibn III Fəribürz, II Fərruxzad ibn II Axsitan, III Axsitan ibn II Fərruxzad, I Keykavus ibn III Axsitan, I Keyqubad ibn II Fərruxzad, Kavus ibn I Keyqubad, Huşəng ibn Kavus kimi şirvanşahşahların fəaliyyətindən, onların hakimiyyətləri dövründə şəhərlərin inkişafından, Şirvanda monqol hakimiyyəti dövründən, Şirvanın sosial strukturu və şəhər quruluşundan, torpaq mülkiyyəti və vergilərdən, XI-XIII əsrlərdə Şirvan mədəniyyətindən təfərrüatla danışılır.

«Şirvanşahlar dövləti» əsərinin son fəsli olan **V fəsil** bütövlükdə Dərbəndi Şirvanşahlar dövlətinin (XIV-XVI əsrləri fəaliyyətini özündə əks etdirir. Bu fəsildə 200 il ərzində Şirvanda hakimiyyətdə olmuş 16 Şirvanşah və Şirvan şahzadələrindən, Şirvanda səfəvilər əleyhinə üsyanlardan, bu dövləti bərpa etmək uğrunda mübarizədən, türk işğalı dövründən, XI-XVI əsrlərdə Şirvan şəhərlərindən və s. məsələlərdən bəhs olunur.





Beləliklə, məqaləmizdən göründüyü kimi, Sara xanım Aşurbəyli olduqca məhsuldar alim olmuş, əsərlərində elmiliyə ciddi riayət etmişdir. O, uzun ömür yolu keçmiş və ömür kitabının səhifələrini elmi məqalə, monoqrafiya və kitablarla zənginləşdirmişdir.

**Xeyirbəy Qasımov**
*tarix elmləri doktoru*

# Sara Bala qızı Aşurbəyli-110

Azərbaycanda tarix elminin tarixini (keçmişini), Vətən tarixşünaslığının təkamülü prosesində mühüm rolu olmuş tədqiqatçıların elmi fəaliyyətini dərindən öyrənmədən «ən ali mənəvi elmlərdən biri» olan tarixin ölkədək inkişaf səviyyəsini anlamaq, onun gələcək inkişaf meyillərini, istiqamətlərini görmək qeyri- mümkündür. «Keçmişi bilmədən bu günlə yaşamaq yolsuz səhraya daxil olmaq və orada məqsədsiz dolaşmaq deməkdir» .

Əsrlər boyu itirilmiş, tarixə çevrilmiş maddi, mənəvi dəyərlərimiz saysız-hesabsızdır. Bu sırada tarixə çevrilmiş görkəmli Azərbaycan övladları da vardır. İtirildikdən sonra unudulmuş dəyərlərimiz, şəxsiyyətlərimiz az deyildir. Lakin Azərbaycan xalqının yaddaşında qalmış dəyərli şəxsiyyətlərin siyahısı da hədsiz deyil.

Cari ilin 27 yanvarında tanınmış Azərbaycan tarixçisi Sara Balabəy qızı Aşurbəylinin anadan olmasının 110 ili tamam olur. Keçən əsrin 6-cı ilində dünyaya gəlmiş, yeni əsrin əvvəllərində haqq dünyasına qovuşmuş S.B.Aşurbəyli zəngin, mənalı sənət və elm yolu keçmişdir.

Sara Balabəy qızı Aşurbəyli 1906-cı ilin 27 yanvarında Bakıda anadan olmuşdur. Zəngin ailədə böyümüş, dövrün tələbləri səviyyəsində, habelə milli adət və ənənələrə uyğun şəkildə təlim və tərbiyə almış S.B.Aşurbəyli 1925-ci ildə İstanbuldakı Janna D'Ark adına fransız kollecini də bitirmişdir. Sara xanım 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsini bitirdi. Lakin «proletariat diktaturasının möhkəmləndiyi» bir tarixi mərhələdə





«arzuolunmaz sosial mənşəyə» malik olan S.Aşurbəylinin şərqşünaslığa, tarix elminə doğru yönəlməsi meyili böyük əngəllərlə qarşılaşdı. Ötən əsrin 30-cu illəri SSRİ-də «sinfi düşmənlərin aşkara çıxarılması» və onların cəzalandırılması ilə əlamətdar idi. Belə bir ziddiyyətli tarixi məqamda Sara xanım elmlə məşğul olmaq arzusunu qəlbində yaşadaraq, əldə etdiyi bilik potensialını gerçəkləşdirməklə sadəcə yaşamaq qərarına gəldi. O, 1941-ci ildə daha bir ali təhsil müəssisəsini - V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Xarici Dillər fakültəsini bitirdi.

Ümumiyyətlə, S.B. Aşurbəylinin bütün fəaliyyətini iki mərhələyə bölmək mümkündür:

1) O, keçən əsrin 50-ci illərinin ortalarınadək, əsasən, pedaqoji fəaliyyətlə və rəssamlıq (boyakarlıq) sənəti ilə məşğul olmuşdur;

2) XX əsrin 50-ci illərinin ortalarından ömrünün sonunadək Sara xanım Vətən tarixinin araşdırılması sahəsindəki məhsuldar elmi fəaliyyəti ilə fərqlənmişdir.

S.B.Aşurbəyli 1937-1958-ci illər ərzində Azərbaycanın müxtəlif ali məktəblərində fransız və ingilis dillərini tədris etmişdir. Həmin dövrdə o, rəssamlıq sahəsindəki böyük məharətini nümayiş etdirmiş, 1946-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilmişdir. Xarici dillərin tədrisi və rəssamlıq o zaman Sovet rejimi üçün ən pis halda «neytral» fəaliyyət növü idi. Buna görə də, S.B.Aşurbəylinin bu sahələrdəki fəaliyyətinə böyük əngəllər törədilmirdi.

XX əsrin ortalarına doğru «SSRİ-də sosializm quruluşu qəti qələbə çaldı», bu məqama qədər «sinfi düşmənlərin» bir qismi imperiya daxilində cəzalandırıldı, əksər hallarda fiziki cəhətdən məhv edildi, «düşmənlərin» digər qismi isə Vətəni tərk etməli oldu. Ömrünün təxminən 20 ilini «neytral» fəaliyyət növlərinə (xarici dillərin tədrisinə və rəssamlığa) həsr etmiş Sara xanım sovet rejiminin cəmiyyətə total nəzarətinin müəyyən qədər zəiflədiyi bir

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

tarixi məqamda özünün əski, gənclik arzusuna uyğun olaraq tarix elminə doğru dönüş etdi. O, 1954-1958-ci illərdə Azərbaycan SSR EA-nın Tarix Muzeyində orta əsrlər şöbəsinin müdiri vəzifəsini uğurla icra etdi.

S.B.Aşurbəylinin tarix elminə qayıdışı Azərbaycan tarixşünaslığının təkamülünün çox mühüm keyfiyyət mərhələsinə təsadüf etdi. Azərbaycanda tarix elminin yeni təkamül mərhələsi, təqribən, ötən əsrin 50-ci illərinin II yarısında başlandı. Bu zamandan etibarən ölkədə Vətən tarixi ilə məşğul olan, Azərbaycanın milli mənafelərinə bağlı araşdırıcılar kütləsi fəallaşdı. Məhz həmin tarixi məqamda elmi tədqiqat prosesinə fəal şəkildə qoşulmuş S.B.Aşurbəyli artıq rəssamlıq, xarici dillərin tədrisi təcrübəsini də keçmişdi. 1958-1961 -ci illərdə Sara xanım Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunda elmi katib və baş elmi işçi vəzifələrində çalışdı. O, 1961-ci ildən Azərbaycan SSR EA-nın Tarix İnstitutunda, ömrünün son illərində isə Azərbaycan MEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda səmərəli elmi fəaliyyət göstərmişdir.

S.B.Aşurbəylinin başlıca tədqiqat obyekti Azərbaycanın orta əsr şəhərlərinin, xüsusilə Bakı şəhərinin ictimai-iqtisadi, siyasi, mədəni inkişaf tarixi olmuşdur. Şirvanşahlar dövləti, Şirvan vilayəti və Bakı şəhəri Sara xanımın daha çox bağlandığı araşdırma mövzuları idi. Tədqiqatçının xeyli məqaləsi rus, ingilis, fransız dillərində nəşr olunmuşdur. S.B.Aşurbəyli bir çox Azərbaycan araşdırıcıları kimi, sovet dövrünün ənənələrinə uyğun olaraq, əsərlərini rus dilində yazmış və nəşr etdirmişdir. Sovet hakimiyyəti dövründə hətta tarixin qədim və orta çağları ilə məşğul olan tədqiqatçılardan «marksizm-leninizm klassiklərinə» müraciət olunması, onların «dəyərli» müddəalarından iqtibaslar gətirilməsi, tədqiqat prosesində əldə edilmiş nəticələrin həmin ehkamlara uyğunlaşdırılması tələb olunurdu. Tarixçilərdən tələb edilirdi ki, milli tarixin bütün mərhələləri və problemləri mütləq «böyük Rusiya xalqının şanlı tarixi» ilə əlaqələndirilsin. Sara Aşurbəylinin elmi fəaliyyəti bu baxımdan müstəsna yanaşma tərzi, mövqeyi ilə diqqəti cəlb edir: Sara xanımın monoqrafiyalarında marksizm-leninizm klassiklərinə «müraciət» məqamları yoxdur, tədqiqatçı araşdırmadan doğmuş elmi nəticələri marksizm ehkamları ilə uzlaşdırmağa can atmır, prinsipial tarixçi Azərbaycan-Rusiya münasibətlərinin bütün tarixi dövrlərində yalnız müsbət məqamlar axtarmırdı. O, məhz bu cəhəti ilə Azərbaycan tarixşünaslığında müstəqil, azad tədqiqatçı kimi diqqəti xüsusilə cəlb edir.

Keçən əsrin 60-cı illərindən etibarən milli tarix elmində ilk dəfə olaraq Azərbaycanın ayrı-ayrı şəhərlərinin tarixi haqqında əsərlərin hazırlanması sahəsində işlər başlandı. S.B.Aşurbəylinin Bakı şəhərinin orta çağlar tarixinə həsr olunmuş monoqrafiyası bu baxımdan Azərbaycan tarixşünaslığında ilkin əsər idi . Əsərdə şəhərin VIII əsrdən XIX əsrin əvvəllərinədək təkamül tarixi araşdırılmışdır.

S.B.Aşurbəyli- nin 1983-cü ildə nəşr olunmuş monoqrafiyasında Şirvanın, Şirvanşahlar dövlətinin VI əsrdən XVI yüzilliyin sonlarınadək olan tarixinin tədqiqi nəticələri izah edilmişdir. Həmin monoqrafiyada «Şirvan dövlətinin meydana gəlməsinin araşdırılması, minillik dövr ərzində onun inkişafının, çiçəklənməsinin və süqutunun mərhələlərinin nəzərdən keçirilməsi» S.Aşurbəylinin başlıca məqsədi olmuşdur. Şirvan tarixinin təqribən bütün problemləri tədqiqatçının diqqət mərkəzində olmuşdur. Bu əsər Azərbaycanın orta çağlar tarixinin öyrənilməsi sahəsində böyük uğur idi. Əsər müəllifi elmi ədəbiyyatda Şirvanşahlar dövlətinin tarixində 4 dövrün qəbul olunduğunu bildirməklə yanaşı, «ərəb işğallarına qədərki dövrün erkən şirvanşahları haqqında məlumatlara malik olmadıqlarını» da qeyd etmişdir. S.B. Aşurbəyli Şirvanşahlar dövlətinin siyasi tarixini aşağıdakı mərhələlər üzrə nəzərdən keçirmişdir:

1) VI əsr - IX əsrin birinci yarısı;
2) IX əsrin ikinci yarısı - XI əsrin birinci rübü;
3) XI - XIII yüzilliklər;
4) XIV-XVI yüzilliklər;

«Azərbaycan elmi tarixşünaslığının banisi» və «akademik üslubda olan ilk monoqrafik tədqiqat işinin» müəllifi hesab olunan A.A.Bakıxanov 1841-ci ildə farsca yazdığı və 1844-cü ildə rus dilinə tərcümə etdiyi «Gülüstani-İrəm» əsərində Şirvanşahlar dövlətinin müstəqilliyini şübhə altına alaraq yazmışdı: «Tarixdən görünür ki, Şirvanşahlar, təqribən, heç bir zaman müstəqilliyə malik olmamış və özlərinin güclü qonşularının: farsların, ərəblərin və türklərin təsiri altında olmuşlar». A.A.Bakıxanovun bu qənaətini, təqribən, 140 ildən sonra S.B.Aşurbəyli öz elmi araşdırmaları ilə təkzib etdi.

Bu, Sara xanımın Azərbaycan tarix elminə gətirdiyi böyük, önəmli yenilik kimi qiymətləndirilə bilər. Ümumiyyətlə, «mütləq mənada müstəqil olan dövlət» anlayışı (xüsusilə orta çağlar tarixi üçün) məqbul deyildir. Hətta, müasir tarixi mərhələdə də hərbi-siyasi üstünlüyə, aparıcı, təşəbbüskar mövqeyə malik olan dövlətlər müəyyən iqtisadi, ictimai, mədəni, ideoloji məqamlarda digər dövlətlərdən asılıdır. Heç olmasa, daxili siyasətdə müstəqilliyə təbii meyl, bir çox hallarda vassal asıllığına düşdüyü dövlətlərə (Ərəb Xilafətinə, səlcuqilərə, monqollara, Azərbaycan Atabəyləri dövlətinə, Hülakülərə, Azərbaycan Səfəvilər dövlətinə və b.) qarşı vaxtaşırı baş vermiş üsyan və qiyamlar Şirvanşahlar dövləti tarixinin diqqəti cəlb edən cəhətlərindəndir. 1538-ci ildə Səfəvi şahı I Təhmasib (1524-1576) Şirvanşahlar dövlətinin siyasi varlığına son qoyaraq təqribən minillik dövlətçilik ənənəsi, tarixi olan Şirvanı bəylərbəyiliyə çevirdikdən sonra da burada siyasi müstəqilliyə qarşısıalınmaz, təbii meyl yaşamaqda idi. Osmanlı sultanları zaman-zaman bu vəziyyətdən maksimum dərəcədə faydalanmağa çalışmışlar. Şirvanın ilk Səfəvi bəylərbəyisi, şah I Təhmasibin qardaşı Əlqas Mirzə (1538-1547-ci illərdə bu vəzifəni icra etmişdir) də «təqribən, bütün Şirvan zadəganlarının məhv olunmasına, onların torpaqlarının qızılbaş tayfa başçılarına və əmirlərinə paylanmasına» baxmayaraq, həmin müstəqillik arzusunun aludəsinə çevrilmişdi. Şirvanın siyasi müstəqilliyi bərpa etmək uğrunda mübarizəsi (1548-1578-ci illər), daha sonra isə onun Osmanlı hakimiyyətinə tabe olunması məsələləri S.B. Aşurbəylinin bu monoqrafiyasında özünün geniş əksini tapmışdır .



Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

Sara xanım doğma Bakı şəhərinə, onun çoxəsrlik tarixinə dərin sevgisini və marağını ömrünün sonunadək nümayiş etdirmişdir. O, 1992-ci ildə Şirvanın başlıca mərkəzi olan Bakı şəhərinin orta çağlar dövrünə həsr olunmuş ikinci monoqrafiyasını nəşr etdirdi. Öncə rusca nəşr edilmiş bu əsər tezliklə doğma dilimizə tərcümə olunaraq yenidən işıq üzü gördü. Müəllif Bakının tarixini arxeoloji dövrdən etibarən XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalınadək nəzərdən keçirmişdir. Monoqrafiyanın I fəslində Abşeronun və Bakının erkən tarixi arxeoloji materiallar əsasında araşdırılmışdır. Burada Bakının əsasının qoyulması tarixindən və şəhərin adının müxtəlif yozumlarından bəhs olunur. Tədqiqatçı problemə dair mövcud olan müxtəlif mülahizələri, fərziyyələri nəzərdən keçirmiş, «Bakı» sözünün atəşpərəstliklə, zərdüştiliklə bağlı olduğunu bildirən tədqiqatçıların müddəası ilə həmrəy olduğunu göstərmiş, tarixi, toponimik və arxeoloji materialların həmin müddəanı təsdiqlədiyini bildirmişdir .

S.B.Aşurbəyli bu monoqrafiyasında da bir sıra mühüm məsələlərə yanaşmada «dil amili»nin əsiri olmadığını göstərmiş, müasir dövrdə toponimikanı, bir sıra dilləri, Azərbaycan (bəzi hallarda hətta Yaxın Şərq) tarixinin bütün təkamül mərhələlərini ifrat türkçülük baxımından «türkləşdirməyə» can atan araşdırıcılardan fərqli olaraq, obyektiv tarixi gerçəkliklərə uyğun gələn elmi mövqe nümayiş etdirmişdir. Sara xanım bu əsərdə də tədqiq etdiyi dövrün bütün problemlərini (ictimai, iqtisadi, siyasi, mədəni və s.)

araşdırmağa çalışmışdır. Tədqiqatçı 1991-ci ildə Bakıdakı Qız qalası ətrafında aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş materiallar əsasında belə qənaətə gəlmişdir ki, e.ə. 12-8 min il bundan öncə (yəni mezolit və neolit dövründə) Bakının yerində qədim yaşayış məskəni olmuşdur . S.Aşurbəylinin bütün monoqrafiyalarında Azərbaycan arxeologiyasının uğurlarına istinadlanma diqqəti cəlb edən mühüm cəhətlərdəndir.

Azərbaycanın Hindistanla çoxəsrlik, zəngin əlaqələrinin tədqiqi S.B.Aşurbəyli- nin elmi yaradıcılığında mühüm yer tuturdu. Sara xanımın 1990-cı ildə işıq üzü görmüş monoqrafiyasında da Şirvan «faktları» unudulmamışdır. 4 fəsildən ibarət olan bu əsərin II fəsli Abşeron yarımadasındakı Suraxanı kəndində orta çağlarda hindlilərin səcdə obyektinə çevrilmiş Atəşgaha həsr edilmişdir. Monoqrafiyanın IV fəslində fəlsəfə, ədəbiyyat, memarlıq, miniatür rəssamlığı və musiqi sahələrində Azərbaycan-Hindistan qarşılıqlı əlaqələrindən bəhs olunur. S.B.Aşurbəylinin incəsənət sahəsindəki böyük təcrübəsi bu əsərdə də özünü aydın surətdə göstərir.

Sara xanımın dəyərli araşdırmalarına və elmi nəticələrinə əlavə olaraq bəzi mülahizələrimizi də bildirmək istəyirik. S.Aşurbəylinin bu monoqrafiyasından belə yanlış bir nəticə hasil olunur ki, Azərbaycan daim Hindistan mədəni-mənəvi, ictimai-iqtisadi təsirinin obyekti olmuşdur. Qədim zamanlardan etibarən Hindistanla qarşılıqlı ictimai-iqtisadi, mədəni-mənəvi əlaqələrdə olmuş Azərbaycan həmin əlaqələrin, qarşılıqlı təsir prosesinin obyekti deyildi. Problemə daha dərindən, obyektiv tarixi gerçəklikləri nəzərə alaraq yanaşsaq, görərik ki, Azərbaycan «daim və bütün sahələrdə Hindistan təsirinə qapılmış» ölkə deyildi, daha çox bu cür təsirlərin fəal subyekti idi. Vətənimiz əsrlər boyu Qərbdən Şərqə və Şərqdən Qərbə doğru «köç edən» müxtəlif (mədəni-mənəvi, ictimai-iqtisadi, dini- ideoloji) dəyərlərin fəal ötürücüsü, yəni əxz etdiyi, mənimsədiyi dəyərlərə özünün bənzərsiz əlavələrini etmiş ölkə olmuşdur. Azərbaycan tarixi



Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

gerçəkliklərində, müasir dəyərlərində Hindistan təsirini görməklə yanaşı, Hindistan tarixi reallıqlarında Azərbaycan təsirinin izlərini də qiymətləndirmək vacibdir. Bu cəhdləri biz etməsək, heç kim etmək fikrinə də düşməyəcək.

Zənn edirik ki, orta əsrlərdə Hindistan-Azərbaycan iqtisadi əlaqələrinin intensivləşməsinin, hindlilərin Azərbaycana doğru yönəlməsinin başlıca səbəbləri Hindistanda əhali kütləsinin daim izafi (artıq) olması və Azərbaycanda iqtisadi fəaliyyət üçün münbit, əlverişli şəraitin mövcudluğu olmuşdur. Sara xanım bir çox əsərlərində Azərbaycanın və atəşpərəsliyin (zərdüştiliyin) üzvi bağlılığını qeyd etmişdir. Lakin «Orta çağlarda Azərbaycanın Hindistanla iqtisadi və mədəni əlaqələri» əsərində biz bu bağlılığı görmürük. Zərdüştilik (atəşpərəstlik) daha çox Azərbaycanın mədəni-mənəvi hadisəsidir. Hətta, bir sıra tədqiqatçılar Azərbaycanı Zərdüştün, zərdüştiliyin vətəni hesab edirlər.

S.Aşurbəylinin xüsusi diqqət yetirdiyi Suraxanı Atəşgah məbədi hindlilərin bu dinə etiqadı olan qisminin Azərbaycana axınının (qayıdışının) bariz faktlarındandır. Məlumdur ki, hələ ərəb işğalları dövründə (VII-IX əsrlərdə), yeni dinin (islamın) yayıldığı tarixi mərhələdə Azərbaycanda və ona qonşu ölkələrdə atəşpərəstliyə (zərdüştiliyə) etiqad edən xeyli əhali kütlələri Hindistana köçməli olmuşdu. Buna görə də, Suraxanı Atəşgahı atəşpərəstlərin Azərbaycana epizodik hallarda qayıdışının maddi, mənəvi təcəssümü, abidəsi kimi qiymətləndirilə bilər.

Muğam sənəti sahəsində də Azərbaycan xalqı fəal, yaradıcı mövqedə olmuşdur. Muğamın Qərbdən («islam mədəniyyəti» sistemindən) Şərqə (Hindistana) keçidi prosesində Azərbaycanın «körpü» rolunu oynadığı sübuta ehtiyacı olmayan gerçəklikdir. S.Aşurbəyli monoqrafiyanın bir çox yerlərində Hindistanın görkəmli dövlət xadimi C.Nehruya (1889-1964) istinad edərək iki ölkə arasındakı qarşılıqlı münasibətlərin qədim tarixə, dərin köklərə malik

olduğunu qeyd edir. Lakin mühüm bir cəhəti nəzərə almaq vacibdir ki, C.Nehru «Azərbaycan» adlı məmləkəti tanıdığını öz əsərlərində nəzərə çatdırmamışdır. XIX yüzilliyin əvvəllərindən etibarən Rusiya imperiyası tərkibində olmuş, 1920-1991-ci illərdə isə «Sovet İttifaqı» adlanan yeni imperiya hüdudlarında qapanmış Azərbaycanı yaxından tanımaq C.Nehrunun imkanları xaricində idi. C.Nehru tarix, mədəniyyət, qarşılıqlı əlaqə problemlərinə toxunarkən daha çox «İran» anlayışından istifadə edirdi. Lakin qeyd etmək lazımdır ki, C.Nehrunun «İran» kimi təqdim etdiyi ictimai- siyasi, iqtisadi, maddi-mənəvi vahidin aparıcı subyekti, siyasi mərkəzi Azərbaycan, maddi-mənəvi dəyərlərin öncül yaradıcısı Azərbaycan türkləri olmuşlar. C.Nehrunun aşağıdakı mülahizələrinə diqqət yetirək: «Teymurilər sülaləsindən olan hökmdar Babur bu mühitdən çıxmışdı və o, Dehli taxtına sahib oldu. Bu hadisə XVI əsrin əvvəlində, İran Səfəvilərin hakimiyyəti dövründə incəsənətin parlaq intihabı dövrünü yaşadığı məqamda, fars incəsənətinin qızıl əsri kimi tanınmış bir dövrdə baş verdi». C.Nehrunun Azərbaycan Səfəvilər dövlətindən (1501-1736), bu dövrün misilsiz mədəni uğurlarından bəhs etdiyi milli tariximizin başlıca faktlarını bilən şəxslərə əyandır, lakin bu faktların xalqımıza şamil edilməməsi də aşkardır. C.Nehrunun obyektiv səbəblərdən görə bilmədiyi, S.B.Aşurbəylinin diqqətini cəlb etməmiş mühüm cəhətləri biz - XXI əsrin Azərbaycan araşdırıcıları görməli, müəyyənləşdirməli, qiymətləndirməli, beynəlxalq aləmdə təbliğ etməliyik.

Ömrünün böyük qismini Vətən tarixinin tədqiqinə həsr etmiş, Azərbaycan tarix elminin tarixində önəmli, bənzərsiz mövqe tutmuş, «mənsub olduğu millət üçün çalışmış» S.B.Aşurbəylinin Azərbaycan milli yaddaşında qalacağına, onun daim hörmətlə xatırlanacağına əminik.





**Elçin Əliyev**
***sənətşünaslıq üzrə elmlər doktoru***

## Aşurbəyov qardaşlarının evi

Bakıdakı birinci "neft coşqusunun" nəticəsi neft biznesində uğur qazanmış milyonçuların əzəmətli mülkləri oldu. Qısa tarixi zaman kəsiyində şəhərin mərkəzi hissəsində yüzlərlə çox gözəl binalar tikildi ki, bunlar, modern müasir memarlığın mövcud olmasına baxmayaraq, bu gün də Bakı şəhərinin "qızıl fondunu" təşkil edirlər.

Yerli bakılılar rus ədəbiyyatının klassiklərindən biri Nikolay Vasilyeviç Qoqolun adına olan küçəni (1909-cu ilə qədər o, Praçeçnı adlanırdı, indi isə Mərdanov qardaşlarının adını daşıyır) çox sevirlər. Köhnə şəhərin bu sakit və kölgəli küçəsində bir-birindən yaraşıqlı binalar sıralanıb.

Amma memarlıq şah əsərlərinin bu qalereyasında da Vidadi (keçmiş Tserkovnı) küçəsi, 148 və Bəşir Səfəroğlu (keçmiş Kamenistıy) küçəsi, 189-un tinində yerləşən 28 nömrəli bina – Aşurbəyovlar ailəsinin mülkü xüsusilə seçilir. Bərq vuran iki gümüşü günbəzli və fasadı venzelli ev-saray. Onun taleyi də, sahiblərinin aqibəti kimi, artıq əsrlərin dərinliklərinə gedib çıxan tarixdir. Və bu tarix çox sevincli başlamışdı: üçmərtəbəli mülk toy hədiyyəsi idi.

Hər üç küçədən bina məharətlə işlənmiş bəzəkləri və fasadda görünən "T.A.A." - Teymurbəy və Aslanbəy Aşurbəyovlar venzeli ilə birlikdə çox gözəl baxılır. Qoqol küçəsindəki iki dəbdəbəli günbəzi olan bu yaraşıqlı mülk 1904-cü ildə elə Teymurbəy Aşurbəyov tərəfindən tikilmişdi. Binalar da, insanlar kimi, bəzən çox maraqlı tərcümeyi-hala malik olurlar və Aşurbəyov qardaşlarının evi buna parlaq misaldır.

Geniş qəlbli insan olan Teymurbəy bir dəfə dostu, bahalı xalçalar, antiq mallar, cəvahirat və zinət əşyaları satan tiflisli tacir Sultanovun qızını görür. On iki yaşı olmasına baxmayaraq, kiçik İsmət Teymurbəydə elə güclü təəssürat oyatdı ki, onu özünün kiçik oğlu Balabəyə almaq istəyini izhar etdi, əlbəttə ki, qız həddi-büluq yaşına çatdıqdan sonra. Bir neçə il ötür və o, Balabəyi təhsil almaq üçün Tiflisə göndərir, orada o, İsmət xanım Sultanovanı görür, ona aşiq olur, lakin, Teymurbəyin sözlərinə görə, "tiflisli gənc xanım Sabunçuda yaşamağa lütf etmədiyindən", böyük Aşurbəyov oğlu Tiflisdə oxuduğu müddət ərzində oğlu və gələcək gəlini üçün təmtəraqlı bir ev ucaldır. Toyu əvvəlcə Tiflisdə edirlər, sonra da bir neçə gün Bakıda toy çaldırılır. Burada isə gənc evlənənləri sürpriz – Praçeçni küçəsindəki dəbdəbəli ev gözləyirdi.

Binanı o zaman çox tanınmış Bakı mühəndislərindən biri, Bakı şəhər Dumasının (indi Bakı meriyasının binası), Qızlar məktəbinin (indi Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun binası) və Hacı Zeynalabdin Tağıyevin fabrikinin, şəhərin bir çox digər əzəmətli tikililərinin layihə müəllifi olan İosif Vikentyeviç Qoslavski layihələndirmişdi. Aşurbəyovların evi – məşhur memarın sonuncu işi və ən yaxşı əsərlərindən biridir.

Əmin-aman həyat, rahat mənzillər, otaqların içməkanının zənginliyi, pilləkən qəfəsələrinin divar rəsmlərindən istifadə etməklə qurulmuş interyerinin həllindəki təntənə İosif Vikentyeviç Qoslavskinin yaradıcılığı üçün səciyyəvidir. Günbəzli qabarıq künc həcmləri ilə təqdim olunmuş memarlıq kompozisiyası tarixi məhəllələrin strukturundakı şəhərsalma mövqeyini də həll edir. Bu saray tipli bina XX əsrin əvvəlinə aid memarlıq abidəsi kimi şəhərin ən yaxşı tikililəri sırasına daxildir.

Aşurbəyovların böyük ailəsi bu evdə yerləşirdi. Evin birinci mərtəbəsində Aşurbəyovların neft firmasının baş kontoru, eləcə də bir gürcü həkimi və onun zövcəsi knyaginya Dadianinin mənzili





yerləşirdi. İkinci mərtəbədəki 12 otaqlı apartamentdə öz ailəsi ilə Balabəy yaşayırdı. Onun qızlarından biri, tanınmış Azərbaycan tarixçisi, bilgiləri və fenomenal yaddaşı sayəsində bu ev-sarayın tarixçəsini bərpa etməyin mümkünə çevrildiyi Sara xanım Aşurbəyova da burada dünyaya gəldi. Balabəyin idarəçisi, ixtisasca dağ mühəndisi olan eston Lemm də binanın ikinci mərtəbəsindəki beşotaqlı mənzildə yaşayırdı. Üçüncü mərtəbədə zövcəsi Tutu xanım və böyük oğlu Əlibəylə birgə Teymurbəy Aşurbəyovun özü yerləşmişdi.

İncə zövqə və gözəllik hissinə malik Balabəy Aşurbəyov öz gənc xanımı ilə Tiflisdən Bakıya gəldikdə, evin Tserkovnı və Kamenistıy küçələri səmtindəki ön girişini şəkillərlə bəzəməyi tapşırdı, bunun üçün Bakının ən tanınmış rəssamlarından biri dəvət olundu. Təəssüf ki, həmin rəsmlərin yalnız kiçik bir hissəsi – "Oazis" əsəri salamat qalıb.

Belə ki, Teymurbəyin övladları valideynlərinin səyləri ilə özünəməxsus ev-muzeyə çevrilmiş mülkdə doğulub böyüdülər və uşaqlıqdan şəhərin bu ən zəngin evlərindən birinin cah-cəlalı ilə əhatə olundular.

Aşurbəyovların evi təkcə memarlıq şah əsəri və özünəməxsus muzey deyil, həm də şəhərin mədəni həyatında hadisə idi. Aşurbəyovların evindəki axşam ziyafətlərinə şəhərin bütün kübar çevrə mənsubları, cəmi yaradıcı seçkinləri toplaşırdı. Qonaqlar mülkün Şərq və Avropa incəsənətinin valehedici əsərləri ilə bəzədilmiş salonlarına heyran qalırdılar. İsmət xanım və Balabəy öz evlərində gözəlliyin və qəşəng incəsənət əsərlərinin dərkinin bayram ovqatını yaratmışdılar və Bakı elitası üçün xeyriyyəçilik, mesenatlıq və incəsənət aləminə hamilikdə istiqamətverici rolunu oynayırdılar.

Aşurbəyovların evi bu narahat dövrün bütün kəskin dönüşlərini öz üzərində hiss etməli olmuşdu. 1918-ci ilin qanlı mart günlərində, artıq Teymurbəy Aşurbəyovun bu dünyada olmadığı, Əlibəyin isə

növbəti səyahətə çıxdığı vaxtda, Sabunçuda erməni daşnaklarının vəhşiliklərindən gizlənən Aşurbəyovlar öz evlərini buraxıb getməyə məcbur qalmışdılar. Mülkü Aşurbəyovların qızlarının müəllimləsi fransız xanım Qreylo xilas elədi. Sara xanımın xatirələrinə görə, o, binanın girişində Fransa bayrağı asmış, özünü Fransa təbəəsi kimi təqdim edərək, Balabəyin otaqlarını və evin böyük bir hissəsini talandan qorudu. Ancaq, vəhşiləşmiş daşnaklar əks tərəfdən evə soxularaq, Əlibəyin mənzilini tarmar etdilər. Aparılması mümkün olmayan nə varsa, amansızcasına sındırılır, eybəcər hala salınırdı: 4 metrlik möhtəşəm güzgülər, fiqurlu füsunkar divar kağızları, ön girişdəki divar naxışları belə bir acı aqibətə düçar oldu.

Yalnız 1918-ci ilin sentyabrında müsəlman Şərqində ilk respublikanın - Azərbaycan Demokratik Cümhuriyyətinin bərqərar olması ilə Aşurbəyovlar öz mülklərinə geri dönə bildilər.

1920-ci ildə işğalçı XI Qırmızı Ordu ərsəyə gəlməkdə olan Azərbaycan demokratiyasının və dövlətçiliyinin taleyi ilə bağlı öz qeyd-şərtsiz hökmünü verdi.

Tarixin bütün sərt dönüşlərini qədim Bakı şəhəri ilə birlikdə Aşurbəyovların mülkü də yaşadı: o çiçəklənmə illərini də, erməni daşnaklarının qəddar barbarlığını da, sosialist dövrünün sərt yekrəngliklərini – unutqanlıq və laqeydlik çağlarını da gördü. Əminəm ki, möhtəşəm binaya onun parlaqlığının və gözəlliyinin geri döndüyü zamanlar da gələcəkdir. Bugünün Bakısının fərqləndirici xüsusiyyəti – bərpa işləridir ki, bunların da sayəsində paytaxtın ən yaxşı memarlıq şah əsərləri ikinci həyat qazanır. Qoqol küçəsindəki 28 saylı ev də köklü bərpa üçün öz növbəsini gözləməkdədir.



**Vəfa Quliyeva**
***tarix elmləri doktoru, professor***

## Böyük nəslin yadigarı

Azərbaycan xalqı böyük, qüdrətli tarixə, zəngin mədəniyyətə, mənəviyyata malik olan bir xalqdır. Bu mirasın dəyərli hissəsini xalqın içindən çıxmış və həyatının mənasını xalqa xidmət etməkdə görən ziyalılar təşkil edir. Onların özləri zaman ötdükcə xalqın milli sərvətinə, milli qüruruna çevrilirlər. Belə ziyalılarımızdan biri tarix elmləri doktoru, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Sara Balabəy qızı Aşurbəylidir.

Sara xanım Aşurbəyli deyəndə gözümün önündə nəcib, artıq dərəcədə təmkinli, üzügülər, ziyalı bir xanım canlanır. Onu bacılarsız təsəvvür edə bilmirəm. Ona görə ki, AMEA-nın Tarix İnstitutunun dəhlizlərində son zamanlar ancaq bacılarının müşahidəsində görünərdi. Bacılar onu gözdən qoymazdılar, qoruyardılar hərçənd ki, ilk baxışdan o bacılarından daha gümrah görünürdü.

Bir gün belə bir mənzərənin şahidi oldum. Tarix İnstitutunun direktoru, rəhmətlik İqrar müəllim iri addımlarla dəhlizin o başından irəliləyirdi. Sara xanım da artıq beli bükülmüş kiçik bacısı ilə dəhlizin bu başından gəlirdi. İqrar müəllimlə üz-üzə gələndə kiçik bacı –"bunu tək buraxmırıq, nəzarət edirik" – deyə güldü. İqrar müəllim cavabında " Canım, sizin özünüzün diqqətə, nəzarətə daha çox ehtiyacınız var" deyə, zarafatyana yanlarından ötüb keçdi.

O zaman, mən gənc tarixçi, bu xanımın necə qüdrətli, böyük bir alim olduğunu dərk etmirdim. O, böyük olduğu qədər də təvazökar, sadə bir insan idi. İllər ötdü, Sara xanım tarixə qovuşdu, mən taleyin hökmü ilə İçərişəhər qalasında elmi fəaliyyətimi davam

etdirdim və Sara xanımı Azərbaycan tarixşünaslığında Bakı tarixinə dair neçə-neçə fundamental əsərin tədqiqatçısı kimi yenidən özüm üçün kəşf etdim.

Çətin, keşməkeşli həyat yolu keçən bu nəcib xanım, Bakı milyonçusu Balabəy Aşurbəyovun ailəsində 1906-cı il yanvarın 27-də dünyaya göz açmışdır. Onun gəncliyi fırtınalı illərə təsadüf edir. 1917-20-ci illər hadisələri ailənin İstanbula getməsi ilə nəticələnir və o, orada Janna Dark adına fransız kollecini bitirir. 1925-ci ildə ailə Bakıya qayıdır və bundan sonra ailənin məşəqqətli günləri başlayır, ailə təqiblərə məruz qalır. Sara xanımın atası Balabəy Aşurbəyov və əmisi Əli bəy həbs olunur və xalq düşməni damğası vurularaq güllələnirlər.

Sara xanım xalq düşməni qızı kimi özü uzun müddət təqiblərə məruz qalmış və yalnız 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq, 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Xarici dillər fakültələrini bitirmişdir. Ali təhsilini başa vurduqdan sonra o, Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Tarixi muzeyində, AMEA-nın Şərqşünaslıq, Tarix İnstitutlarında müxtəlif vəzifələrdə çalışmış, 1993-cü ildən ömrünün sonuna qədər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi vəzifəsini tutmuşdur.

Sara xanımı Azərbaycan tarixşünaslığında əbədi yaşadan onun qədim Bakının tarixinə dair olan tədqiqatlarıdır. O, "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri" və "Şirvanşahlar dövlətinin tarixi" kitablarının müəllifidir. Sara xanım ilk və yeganə tarixçidir ki, öz həyatını Bakı və Şirvanşahlar dövlətinin tarixinin tədqiqinə həsr etmişdir. Bu əsərlərdə Qədim Bakının yaranma tarixi, orta əsr Bakısının siyasi tarixi, mədəniyyəti, sosial münasibətləri əks olunmuşdur. Minillik tarixə malik, İçərişəhər memarlığının formalaşmasına böyük təsir göstərmiş qüdrətli Şirvanşahlar dövlətinin sosial-siyasi, iqtisadi,





mədəni həyatı VI əsrdən XVI əsrə kimi zəngin mənbələr əsasında araşdırılmış, Şirvanşahlar sülaləsinin tarixi, şəhərlərin iqtisadi vəziyyəti və inkişafı, əhalinin tərkibi, feodal cəmiyyətinin quruluşu kimi məsələlər geniş tədqiq olunmuşdur. Bu tədqiqatlarına görə Sankt-Peterburqda namizədlik, Tbilisidə isə 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Sara xanımın aldığı Avropa təhsili onun elmi fəaliyyətində ona yardımçı olur. Avropa dillərini mükəmməl bilməsi fundamental "Şirvanşahlar Dövləti" əsərinin yazılmasında ingilis, fransız dilli mənbələrin tədqiqata cəlb olunmasına kömək edir. Sara xanımın şərq dillərini bilməsi ərəb, fars dilli mənbələrdə Şirvanşahların tarixinə dair kifayət qədər maraqlı və orijinal sənədlərin tədqiqata cəlb olunması əsərin mənbəşünaslıq bazasını daha da zənginləşdirir. Xüsusi vurğulamaq lazımdır ki, Sara xanım bu əsəri ilə həm minillik dövlətçilik tarixinə malik olan Şirvanşahlara həm də özünə möhtəşəm, yenilməz bir abidə ucaltmışdır. Nə ondan əvvəl nə də ondan sonra bu problemi qədər geniş, dolğun tədqiq edən olmamışdır.

Bakı tədqiqatçısı, əsl elm fədaisi, Azərbaycan tarix elminin sütunlarından biri olmaqla, özü Azərbaycan xalqının milli sərvətinə çevrilmiş Sara xanım Aşurbəyli bütün ömrü boyu vətənpərvər bir ziyalı olaraq qalmışdır. O, özünün yüksək intellektini Azərbaycan xalqının rifahı, onun tarixi, mədəniyyəti naminə tətbiq etməyə çalışırdı.

Bu böyük alimin fəaliyyəti ictimai xarakter daşımışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev alimin 90 illiyi münasibətilə ona göndərdiyi məktubda onun elmi və ictimai fəaliyyətini belə səciyyələndirmişdir: "...Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir".

Görkəmli alim 2001-ci il iyulun 17-də 95 yaşında vəfat etmişdir. Hələ neçə-neçə nəsillər Sara xanımın qoyub getdiyi zəngin elmi mirasdan bəhrələnəcəklər. Bakı tarixinin öyrənilməsinə böyük əmək sərf etmiş Sara xanımın elmi yaradıcılığına Azərbaycan Respublikası Nazirlər kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi də böyük önəm verir, onun tədqiqatları idarənin elmi – tarixi araşdırmalar sahəsində çalışan əməkdaşları üçün əsas istinad mənbələri sırasındadır. Biz bu böyük alimin tariximiz üçün etdiklərini minnətdarlıqla xatırlayır, onun ruhu qarşısında baş əyirik.





**Gülnar Əliyeva**
*əməkdar mədəniyyət işçisi*

## Böyük alimin çətin taleyi

Bakı şəhərinin tarixindən söz düşəndə, dövrün tarixi hadisələri ilə rastlaşanda böyük alim Sara xanım Aşurbəylinin kitablarına istinad edirik. Onun kitabları vasitəsilə Qədim Bakının siyasi, iqtisadi, ticarət əlaqələri, şəhər sənətkarlığı , tarixi abidələri haqqında dolğun məlumat almaq olur. Bu zəhmətkeş alimin bir neçə dil bilməsi , ona birbaşa ilkin mənbələrdən istifadə etməyə yol verirdi. Bizim tarix elmi üçün



mənbələrdən götürülmüş məlumat çox qiymətlidir. Ondan soruşanda ki, siz neçə dil bilirsiniz? Cavabında deyərdi ki, fransız, rus, ingilis, alman ,fars, ərəb və bir az latın dili. Çətin bir tale yaşadığına baxmayaraq, Sara xanım bu zəhmətli işin öhdəsindən asanlıqla gələ bilirdi. Ona təzyiqlər olunurdu, tarix elmi ilə məşğul olmağa qadağa qoyulmuşdu. Buna onun tərcümeyi halı yol vermirdi. Ailə vəziyyəti də düz gətirmədi. Tarix muzeyinin direktoru Mövsüm Salamovu xalq düşməni elan etdilər, həbs edib sürgünə göndərdilər. Atası Balabəy güllələndi, ailəsi evdən qovuldu. Bu zamandan etibarən Sara xanımın həyatında qara zolaq başladı . İllər keçdi və O, rəssamlıq mək-





təbinə daxil oldu, Mənzərə çəkməyinə baxmayaraq, onun işlərini sərgidən çıxartdılar. Onun çəkdiyi "Göygöl" rəsmi İncəsənət muzeyində qadın rəssamların sərgisində nümayiş olunurdu. Meksikadan gələn qonaqları müşahidə edərkən bu əsər qonaqlara Meksikanı xatırladırdı və əsər onlara bağışlandı. Bu gün də Sara xanımın bir neçə əsəri





"Nuxa mənzərəsi" 1943-cü il, "Üzüm yığımı" 1946-cı il və "Göygöl" 1956-cı il Bakının muzeylərində saxlanılır.

Fransız dilini bilməsi bu qadını xilas etdi o məktəbdə və kurslarda dərs keçirdi və tərcümə işləri görürdü. Bu cəsarətli xanım hər şeyə dözdü ,sınmadı özü dediyi kimi buna onun haqqı da yox idi . Xəstə anası və ərə getməyən iki bacısı onun əlinə baxırdı ,19 ildən sonra sürgündən qayıdan yoldaşı cavan rus qadını ilə birgə qayıtdı. Sara xanım bir neçə vaxtdan sonra Hüseynzadələr nəslindən olan bir savadlı ,tərbiyəli oğlanla nişanlandı. Nışanlısı Bəhram yeddi il Almaniyada oxumuşdur . Bir gün Bakıya uşaqla alman qadın gəlir hansı ki, bu uşaq Bəhramın övladı idı və o həmin qadınla evlənməli oldu. İllər keçdi , zaman dolandı 30 ildən sonra Bəhramı Sara xanım küçədə gördü və onlar evlənməyi qərara aldılar.

Aşurbəyovlar xeyriyyə yığıncaqlarında fəal iştirak edirdilər. Sara xanımın anası İsmət xanım xeyriyyə cəmiyyətinin katibi ,sədri isə Zeynalabdin Tağıyevin həyat yoldaşı Sona xanım idi. Cəmiyyətə bu təşkilatın təsiri böyük idi ,üzvləri isə Pəri Topçubaşova ,Sara Vəzirova, Xədicə Əlibəyova və başqaları idi. Atası Balabəy də xeyriyyəçilik işləri görürdü o Ruhulla Axundova təhsil almaqda , sonra Akademiyanın 1-ci Prezidenti olan M.A. Mirqasımovaya da maddi köməklik göstərmişdir. Söhbət zamanı ondan soruşdular ki, hardan bu qədər bilik toplaya bilmisiz, onda Sara xanım deyirdi ki, elə yeniyetmə yaşlarından böyüklərin danışığına qulaq asmağa çox həvəs göstərərdim. Ümumiyyətlə , Aşurbəyovlar nəslinin nümayəndələri xeyriyyəçilikdə ,insanlara kömək əllərini uzatmaqda bir tələbat duyurdular. Bakı şəhərinin ərazisində tikilən iki böyük məscid - onlardan biri 1912 –ci ildə bu nəsil tərəfindən Göy məscid və ya Əjdərbəy Aşurbəyov məscidi adlanan allah evi tikilmişdir. Aşurbəyovlar Bakı şəhərinin tarixində dərin iz qoymuşlar onlar

tərəfindən tikilən məktəb, xəstəxana, malikanə, məscidlər Bakı memarlığının qızıl fonduna daxil olmuşdur. 1914-cü ildə Nabat xanım Rzayeva Aşurbəyova tərəfindən tikilən Təzə pirdir. Nabat xanım həmçinin Sabunçuda məktəb ,hamam, Bakı Şollar su kəmərinin tikilməsinə vəsait ayırmışdır.

Uşaqlıqda ərköyün böyüyən Sara xanım sonrakı həyatında çox çətinliklərlə rastlaşmış amma, bu çətinliklər qarşısında başı daima uca olmuşdur. Ondan soru°anda ki, siz necə bu çətinliklərə dözə bilmisiniz və bu qədər səmərəli i°lər görə bilmisiniz . Onda o deyirdi ki, atam Balabəyə oxşamışam , o da mal dövlətinə baxmayaraq o dəbdəbəli həyat keçirmirdi ,bizi də zəhmətə öyrədirdi . Bizim oyuncaqlarımız da yox idi ,bizə musiqi , tikmə işləri, dil öyrədirdilər. Bunları həyata keçirmək üçün Sara xanımın atası uşaqlar üçün bir neçə müəllim tutmuşdır hətta, xaricdən də dəvət olmuş müəllimlər var idi.

Bu zəhmətkeş qadın tarix elmi üçün böyük işlər görmüşdür, onun yazdığı elmi əsərləri böyük marağa səbəb olub və əhali tərəfindən bu gündə sevilərək oxunur. 1964-ci ildə onun ilk kitabı "Bakının orta əsr tarixi oçerkləri" adında əsəri çapdan çıxır və buna görə 1982-ci ildə Azərbaycan Əməkdar elm xadimi adına layiq görülür. 1986-ci ildə isə "Şirvanşahlar dövləti" adlı kitaba görə Dövlət mükafatı laureatı adını almışdır. Sonralar "Azərbaycanın Hindistanla orta əsrlərdə iqtisadi və mədəni əlaqələri" adlı əsəri çapdan çıxmışdır. O , 120 məqalə və 4 kitabın müəllifidir. Sara xanımın bütün kitablarının özünə xas olan cəhəti vardır. Burada dəqiqlik ,maraqlı faktların təqdim olunması və xarici dillərdə nəşr olunan məlumatların əks olunmasıdır. Verilən faktlar Azərbaycan tarixinin hərtərəfli təbliğinə həsr olmuşdur. O xalqına onun tarixini tanıtdırmaq istəyirdi. Xalq arasında belə deyirlər ki, öz tarixini bilən xalq yüksəkdədir, alidir , bilməyənlər nadan və bixəbərdir .

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il 2016

**Рамиз Ашурли**
***ст.преподаватель Западного Университета,***
***член Азербайджанского историко-родословного общества.***

## Несколько строк из жизни великого ученого

История – наука строгая, она не прощает легковесного подхода к себе, она не прощает конъюнктурного отношения, не прощает конформизма. Ибо только глубокое знание истории, только правдивое ее отображение дает понимание исторических процессов, позволяет ясно смотреть в будущее и находить в нем свой путь как отдельному человеку, так и целым странам и народам.

Писать «правду, только правду и ничего, кроме правды» - таково было научное кредо Сары ханум Ашурбейли, чье 110-летие мы отмечаем сегодня. Этому принципу она следовала всю свою жизнь.

Первая азербайджанка – доктор исторических наук, автор капитального исследования «История города Баку. Средневековый период», о котором профессор, член-корр. АН Азербайджана Октай Эфендиев сказал, что любому другому в этой области делать уже нечего. То же самое можно сказать и о другом научном труде Сары ханум – «Государство Ширваншахов».

Как родилось увлечение историей, что послужило толчком к тому, что именно этой науке Сара ханум посвятила всю свою долгую, трудную и, вместе с тем, необычайно интересную, насыщенную творческим трудом жизнь, трудно сказать. Возможно, это было знакомство с книгой «Гюлистан-и Ирэм» Аббас Кули Ага Бакиханова, где упоминался родоначальник рода Ашурбековых Ашур хан Афшар. В своих воспоминаниях

Сара ханум пишет: «Как-то отец позвал меня в кабинет и показал мне рукопись, и сказал, что это книга Бакиханова и в ней имеются сведения о нашем предке. Эти его слова я запомнила».

Быть может это произошло позднее, во время пребывания в Турции, куда семья Сары ханум вынуждена была эмигрировать в 1920 г. «Азербайджанцы, жившие в Стамбуле, часто посещали нас. У нас бывали Юсуф-Али Алиев, Аббас-Кули Кязим-заде, Ягуб-бек и Юсуф-бек Везировы, турецкий полковник Фети-бек с женой и дочкой. Затем, мы встречались с семьей Али-бека Гусейн-заде и Ахмед-бека Агаева, который сам жил в Анкаре и был назначен Мустафой Кемалем министром печати Турции. Иногда он приезжал в Стамбул и я его видела. По пятницам азербайджанцы и я с отцом и мамой ходили в гости к профессору Фуад-беку Кёпрюлю-заде, который жил в своей вилле на берегу Мраморного моря. Затем мы встречались с семьей полковника Усейн-Гули-хана Хойского, брата Фатали-хана и другими азербайджанцами» – пишет Сара ханум в своих мемуарах. Быть может, разговоры об истории, о культуре, о литературе Азербайджана, которые велись в этом обществе, и которым внимала юная Сара ханум, сыграли свою роль.

А может быть, сказалась пятилетняя разлука с родным городом, обострившая то чувство любви к родной земле, которое и раньше переполняло ее сердце. Сара ханум рассказывала, что когда летом 1925 семья вернулась в Баку, она могла часами бродить по старому городу – Ичэри шехер, разглядывать старинные дома, мечети, разбирать надписи, сохранившиеся на древних камнях. Она любила беседовать со старожилами бакинской Крепости, расспрашивать их о том или ином событии.

Так или иначе, но, поступая на историческое отделение Восточного факультета Азербайджанского Государственного

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il 2016

Университета, Сара ханум уже твердо знала, что именно история – ее призвание на всю жизнь.

Воспоминания Сары ханум – это отдельная история.

20 лет назад, 27 января 1996 года по указанию Президента Азербайджанской Республики Гейдара Алиева в Театре Оперы и Балета было торжественно отмечено 90-летие Сары ханум. Юбиляра тепло поздравил Президент Республики Гейдар Алиевич Алиев. Накануне во всех газетах был опубликован его Указ о награждении Сары ханум орденом Славы. Было много речей, поздравлений, пожеланий здоровья, творческих успехов. За главным торжеством последовали приглашения на другие. И многие спрашивали Сару ханум, собирается ли она писать воспоминания. А Гейдар Алиевич, поздравляя ее, прямо сказал: «Сара ханум, Вы прожили такую интересную жизнь! Мы ждем Ваших мемуаров!».

Когда через несколько месяцев после юбилея, я поинтересовался у нее, как идет работа над мемуарами, Сара ханум сказала, что ей тяжело вспоминать все пережитые ею невзгоды, все перепетии ее тяжелой жизни, что у нее поднимается давление от этих воспоминаний, и что она решила ничего не писать. Однако, я помнил, что как-то, незадолго до этого разговора, я видел несколько листов исписанной бумаги на ее рабочем столе и кто-то из ее сестер сказал, что она начала писать воспоминания.

После того, как Сары ханум не стало, мы искали эти листочки, искали их и тогда, когда готовили материалы для Мемориального сайта Сары ханум, который мы с женой и сыном создали в 2008 году, но безуспешно. И вот, недавно они все-таки нашлись среди множества разных бумаг – набросков статей, различных вариантов ее монографий, других рукописных и машинописных материалов, старых газет и т.д.

Нашлись эти бесценные, не побоюсь этого слова, странички – 41 лист рукописного текста – черновик воспоминаний с множеством вставок, правок, исправлений, дополнений.

Сара ханум любила вспоминать свои детские годы, с удовольствием вспоминала годы, проведенные в Турции, но много ли было приятных воспоминаний после возвращения из Турции? Арест отца, арест мужа, болезнь, а затем смерть любимого дяди, бесконечные увольнения с работы «дочери врага народа»... Так что, неудивительно, что ее воспоминания заканчиваются, точнее обрываются летом 1925 года, когда семья Ашурбековых стала готовиться к возвращению в Баку.

Дальше начиналась советская действительность. Все заботы о семье, о младших сестрах, брате – студенте Медицинского института, больной матери, отце, так и не нашедшем места в жизни после возвращения из эмиграции, все легло на хрупкие плечи совсем еще молодой Сары ханум. «Я была главой семьи» – говорила Сара ханум. А давалось ей это ой, как непросто! Молодого, увлеченного работой историка, уже опубликовавшего несколько научных статей (первую – вскоре после возвращения в Баку, еще до поступления в Университет), в конце 30-х годов увольняют с работы, более того, запрещают заниматься историей. «Чтобы дочь буржуя писала историю Азербайджана?! Не бывать этому! Забудьте об истории навсегда!» – так кричали на нее в одном из высоких кабинетов.

Пришлось зарабатывать на жизнь преподаванием иностранных языков (а она знала 8 языков!) сначала в школах БОНО, потом в Педагогическом институте. Позднее, в Заочном пединституте она возглавила факультет и кафедру иностранных языков. В конце 40-х – начале 50-х она преподавала английский в Консерватории. Притом, она прекрасно играла на фортепиано, исполняя и европейскую классику и азербайджанские мугамы.



Сара ханум рассказывала, что нередко к ней на кафедру заходил Ниязи, музицировал на фортепиано. Прекрасный музыкант, он был и интересным собеседником. Возможно, именно отзвук тех бесед об азербайджанской музыке, об истоках мугама, о взаимопроникновении музыкальных культур стран Востока, да и не только Востока, звучит в посвященном музыке разделе монографии Сары ханум «Экономические и культурные связи азербайджана и Индии в средние века».

Истинно талантливый человек талантлив во всем. В 1941 она окончила Художественное училище им.А.Азимзаде и стала, параллельно с преподаванием, работать художником-декоратором в Азербайджанском Драматическом театре. Ей приходилось не только делать эскизы костюмов, декораций к спектаклям, но и самой расписывать задники сцены, не только расписывать, но и таскать тяжеленные декорации. Помимо этого, из под кисти Сары ханум вышло немало живописных полотен. Еще в 40-е годы она стала членом Союза художников Азербайджана, участвовала во многих выставках, а в середине 60-х прошла ее персональная выставка в помещении Дома медработников. Ряд ее картин хранится в Музее изобразительных искусств и Музее истории Азербайджана, что-то разошлось по частным коллекциям, а одна из картин «уплыла» в далекую Мексику в качестве подарка одной мексиканской делегации, побывавшей в Азербайджане. И в этой области Сара ханум была и творцом, и исследователем, и несла свои знания людям – в 50-е годы она в течение нескольких лет преподавала в Университете историю искусств.

Но, где бы она ни работала, чем бы ни занималась, главным делом ее жизни оставалась История. Именно ей она посвящала каждую свободную от работы, от забот о близких минуту. По крупицам, из самых разных источников на самых

разных языках она собирала нужные сведения, сопоставляла, анализировала, проверяла и перепроверяла, и снова искала. Так, в неустанном труде, в постоянном поиске рождались ее книги, по которым мы сегодня изучаем историю родного города, родной страны. Широчайший кругозор, разностороннее образование, глубокое знание предмета и высочайшая требовательность к себе – вот, что всегда отличало Сару ханум, вот, что стало залогом непреходящей ценности и актуальности ее трудов.

В 1949 году в Ленинграде, в Институте Востоковедения состоялась защита ее кандидатской диссертации, а в 1965 в Тбилиси – защита докторской. Обе за пределами родного города – слишком много в нем было завистников и недоброжелателей. Но именно ему, родному городу, родной земле посвящены все ее работы – 5 монографий: «Очерк истории средневекового Баку», «Государство Ширваншахов», «Экономические и культурные связи Азербайджана с Индией в средние века», «Города Ширвана в XVI-XVII вв.», «История города Баку. Средневековый период», а также множество статей. Все это бесценное богатство она оставила нам, нашим детям и внукам.

И еще одну, может быть не менее важную историю оставила нам Сара ханум – историю своей жизни, пример честного, бескорыстного и беззаветного служения Ее Величеству Науке.

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

**Kamil İbrahimov**
*tarix elmləri doktoru, professor*

## Sara Aşurbəylinin xatirələrindən mülahizələr

Azərbaycan tarixində əməlləri ilə yadda qalan tanınmış nəsillər çox olub. Həmin nəsillər bu gün də hörmət və ehtiramla xatırlanır. Belə nəsillərdən biri də kökləri qədim dövrlərə gedib çıxan Aşurbəyovlardır. Nadir şah 1740-cı ildə Azərbaycana gələndə Bakıda və ətraf kəndlərdə özünə arxa yaratmaq üçün əfşar türk tayfalarından bir çoxunu Sabunçu, Zabrat və Keşlə kəndlərində yerləşdirmişdi. Məhz Nadir şahın dövründə Aşur xan Cənubi Azərbaycanın Təbriz şəhərinin hakimi və Azərbaycanın sərdarı olub. Bu nəslin nümayəndələri ölkədə möhtəşəm memarlıq abidələrinin tikilməsində Azərbaycan elminin inkişafında və xalqın maariflənməsində müstəsna fəaliyyət göstəriblər. Aşurbəyovların ucaltdıqları möhtəşəm yaşayış binaları, məscidlər, onların iştirakı ilə inşa edilən məktəblər, xəstəxanalar və digər memarlıq inciləri inqilabdan əvvəlki Bakı memarlığının qızıl fondunu təşkil etməkdədir.

Sara xanım Aşurbəylinin mənsub olduğu Aşurbəyovlar nəslinin nümayəndələri - öz dövrünün böyük mesenatları sayılan Teymur bəy, Əjdər bəy, Bala bəy, Əhməd bəy, Əli bəy və başqa Aşurbəyovların xeyirxah əməlləri bu gün də xalqın yaddaşındadır. Teymur bəy Aşurbəyovun tikdirdiyi indiki "Günəşli" sanatoriyasının binası, Əjdər bəy Aşurbəyovun tikdirdiyi Əjdərbəy məscidi, Nabat xanım Aşurbəyovun tikdirdiyi Təzə Pir məscidi Şərq memarlığının möhtəşəm simasını bu günkü nəsllərə çatdırır.

Azərbaycanın görkəmli tarixçilərindən olan Sara xanım Aşurbəyli 1906-cı il yanvarın 27-də Bakıda, neft sənayeçisi Balabəy Aşurbəyovun ailəsində dünyaya gəlib. Bala bəy 1904–17-ci illərdə mesenat kimi ad çıxarmışdı, azərbaycanlı tələbələrin bir çoxu Sankt-Peterburq və Moskvanın ali məktəblərində onun vəsaiti hesabına təhsil alırdı. O özü Tiflisdə gimnaziyanı və iqtisadiyyat kurslarını bitirmişdi. Gələcək həyat yoldaşı – xalça, daş-qaş və əntiq əşya tacirinin qızı İsmət xanım Sultanova ilə də elə burada tanış olmuşdular. Əvvəl Tiflisdə, sonra isə Bakıda bir neçə gün toy çaldırmışdılar.

Onun atası Teymur bəy Aşurbəyov Sabunçuda geniş torpaqlara, təsərrüfat sahələrinə malik olmuşdur. O, çox səxavətli bir adam, mesenat kimi tanınırdı. O, Sabunçuda xəstəxananın və məktəbin tikintisinə, məscidlərin təmirinə və bərpasına, yoxsullara yardım üçün iri məbləğdə ianələr vermişdi. Teymur bəy 1904-cü ildə toy hədiyyəsi olaraq inqilabdan əvvəlki Bakının memarlıq incilərindən sayılan üçmərtəbəli mülkünü onlara bağışlamışdı. Bu bina Şəhər Dumasının, indi isə Bakı meriyası binasının müəllifi olan İosif Qoslavskinin sonuncu işi idi. Aşurbəyovların mülkü Praçeçnaya küçəsində, indiki Qoqol 28 saylı ünvanda yerləşirdi. Binanın divarları naxışlarla bəzədilmişdi. Divar naxışları bu mülk və onun yaradıcıları, ümumiyyətlə, XX əsrin əvvəllərində Bakıda memarlığın çiçəklənmə dövrü haqqında dolğun təsəvvür yaratsa da, təəssüf ki, bu günə kimi bərpa olunmamışdır. Qoqol küçəsindəki evin naxışları indi də öz parlaq rəng palitrası ilə göz oxşayır və o vaxtlar Aşurbəyovların evində hökm sürən bayram əhvali-ruhiyyəsindən xəbər verir.

Aşurbəyov qardaşları uğurlu biznesmenə çevrilmişdilər, onların yaratdığı "Əli bəy və Bala bəy Aşurbəyov qardaşları" şirkəti isə Bakının ən inkişaf etmiş neft şirkətlərindən biri idi. Şirkətin mədənləri Sabunçu və Zabrat kəndləri yaxınlığında yerləşirdi. Uzun

aylarını Avropada keçirirdi. Aşurbəyovların evi təkcə memarlıq incisi deyil, həm də şəhərin mədəni həyatının bir parçası idi. Zadəganlar, yaradıcı elita Aşurbəyovların evinə dəvətli ziyafətlərə toplaşırdılar. Şərqin və Avropanın valehedici sənət əsərləri ilə süslənmiş zallar qonaqları heyran edirdi. Bala bəylə həyat yoldaşını xeyriyyəçilik, mesenatlıq və incəsənətə hamilik sahəsində elita üçün örnək göstərirdilər.

İsmət xanımın və Bala bəyin gözəlliyin və möhtəşəm əsərlərin duyulması üçün yaratdıqları xoş atmosfer şəhər zadəganlarını Praçeçnaya küçəsindəki evə çəkirdi; məsələn, Aşurbəyovlar yerli sənətkarlara imperator Nikolaya hədiyyə edilmiş 8 funtluq gümüş qabın surətini sifariş vermişdilər. Qab fil sümüyü üzərində qızıl və müxtəlifrəngli minalarla işlənmişdi. Sənətkarlar işin öhdəsindən məharətlə gəlmişdilər. 1900-cü il sərgisində nümayiş olunmuş bu sənət əsəri Parisdə əməlli-başlı gurultu qoparmışdı. Şamilin dağ mühəndisi F.Vəzirovun kolleksiyasında olan qılıncı və gümüş çərçivəli, üstündə ad yazılmış tapançalar kimi və əlbəttə ki, Bakı zərgərlərinin əl işi olan, zümrüd, almaz və yaqutla süslənmiş nəfis diademalar (çutqabağı). 1900-cü ildə dəyəri 2500 rubl olan bu diademalardan bəzisinin qiyməti Parisdəki zəfərdən sonra 25–30 minə qalxmışdı. Əvvəllər yerli varlılar tərəfindən layiqincə dəyər verilməyən Bakı zərgərlik sənəti Parisdəki uğuru sayəsində həmin illər çiçəklənmə dövrünü yaşayırdı. Təəssüf ki, bu dövr çox qısa oldu.

Ataları kimi qardaşlar da təkcə uğurlu biznesmen deyil, mesenat kimi də hörmət qazanmışdılar. Onlar Bakının ictimai həyatının, bütün əhəmiyyətli xeyriyyəçilik aksiyalarının fəal iştirakçıları idilər. 1908-ci ildə Buxara əmirinin təşəbbüsü ilə Sankt-Peterburqda məscid tikilməsi üçün vəsait toplananda Bakı neft maqnatlarının bu savab işə töhfəsinin əhəmiyyətli hissəsi Aşurbəyov qardaşlarının payına düşmüşdü. 1910-cu ildə Bala bəy əlavə olaraq



Peterburq məscidinin böyük namaz zalı üçün təmtəraqlı çilçıraq hədiyyə etmişdi.

Sara xanımın anası İsmət xanım fars poeziyasının gözəl bilicisi imiş. O tez-tez tələbələri evində qəbul edər, onlara xarici dillərdən dərs deyərmiş. Sara xanım xatirələrində yazırdı ki, "Mənim bir neçə dili mükəmməl bilməyimdə anamın böyük rolu olub"

1913-cü ildə Sara xanım imtahan verərək "Müqəddəs Nina" Bakı qızlar məktəbinə qəbul olunur. Azərbaycanda Sovet inqilabının qələbəsi onun gimnaziya təhsilini başa vurmasına imkan vermir. Sara xanımın ən parlaq uşaqlıq xatirələri 1913-cü ilə aiddir. O xatirələrində yazırdı: "Atam bayram düzəltmişdi, müsəlmanlar üçün, demək olar, kafir bayramı sayılan Yeni il bayramı – yolka bayramı düzəltmişdi. O dövrün bütün məşhur milyonçularının – Tağıyevin, Əsədullayevin, Şibayevin, Səlimovun uşaqları bizə qonaq gəlmişdilər. Sonralar yazıçı olmuş və Avropada M.Əsədbəy adı ilə tanınan Lyova Nissenbaum da onların arasında idi".

Sovet hakimiyyəti qurulduqdan sonra ən amansız repressiyalar Aşurbəyovların üzərinə yönəldilir, ən ikrah doğuran donoslar onların barəsində yazılır. Lakin bunlar da bu qədim əsilzadə nəslin övladlarının mənlik və qürurunu sındıra bilməmişdi. Sovet dövründə var-yoxdan çıxarılan, mal-mülkləri əllərindən alınan Aşurbəyovlar nəsli öz sıralarından xalqımıza gözəl alimlər, müəllimlər, istedadlı və qeyri-adi şəxsiyyətlər və nəcib insanlar bəxş etdi.

1920-ci ildən Azərbaycanda – SSRİ-nin müttəfiq respublikalarından birində – ilk növbədə neft emalı zavodlarının milliləşdirilməsinə başlanılır, tezliklə bütün neft sənayesi dövlətin mülkiyyətinə çevrilir. Əksər neftxudalar artıq çoxdan xaricdə idilər. Aşurbəyovlar doğma Bakıdan ayrılmaq istəmirlər, amma onları, demək olar, ölkədən sıxışdırıb çıxarırlar. Əli bəyi həbs edirlər, yalnız İsmət xanımın uzaq qohumu olan N.Nərimanovun sayəsində onu azadlığa buraxırlar. 1920-ci ildə N.Nərimanovun köməkliyi ilə

Aşurbəyovlar ailəsi İstanbula köçür. Sara xanım və bacıları İstanbul Janna Dark adına fransız kollecinə, qardaşı isə Qalatasaray universitetinə daxil olurlar. Sara xanım xatirələrində yazırdı ki, "Biz bahalı və nüfuzlu təhsil müəssisələrində oxuyurduq, güzəranımızdan çox məmnun idik, amma hiss edirdik ki, valideynlərimiz vətən üçün çox darıxırlar."

1925-ci ildə Sara xanım kolleci bitirən kimi Aşurbəyovlar ailəsi Bakıya qayıdırlar. Qoqol küçəsindəki mülkdə artıq çoxdan yeni sakinlər məskunlaşmışdı və Aşurbəyovlar qohumlarının Şah döngəsindəki kiçik mənzilində yaşamağa məcbur olurlar. Beləliklə Sara xanımın həyatında yeni dövr başlayır. O, Azərbaycan Dövlət Universitetinin Şərq fakultəsinin tarix şöbəsinə daxil olur. 1930-cu ildə şərq və azərbaycan tarixi üzrə ixtisaslaşaraq Universiteti bitirir. Orta məktəblərdə dərs deyir, Azərbaycan Dövlət Tarix Muzeyində elmi işlə məşğul olur.

1933-37-ci illərdə SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin tarix bölməsində, daha sonra SSRİ EA Azərbaycan filialının Tarix İnstitutunda kiçik elmi işçi vəzifəsində işləyir.

1935-ci ildə Bala bəyi həbs edirlər. O, neft sənayeçisi, köhnə Bakının neftxudası olmaqda ittiham edilir və Qazaxıstan şəhərlərinin birində həbsxanaya salınır. Uzun illər sonra həbsxana həkiminin dediyinə görə, kameraya fitnəkar yerləşdirirlər və o, Stalini söyməyə başlayır. Hamı susur, Bala bəy isə özünü saxlaya bilməyib "Stalin diktatordur!" deyir. Bu sözlər kifayət edir və 1937-ci ildə onu güllələyirlər.

Atasının ölümündən sonra ailə hərtərəfli təqib olunur. İstehza ilə "milyonçu uşaqları" çağrılan Aşurbəyovlar daha çox zəhmətə qatlaşmalı olurlar. Sara xanım həmin il qısa müddət Sank Peterburq Şərqşunaslıq İnstitutunda işləyir. Sonra isə vətənə APİ-nun xarici dillər fakültəsinə fransız dili müəllimi göndərilir. Eyni zamanda Sara xanım bu ali məktəbin ingilis dili fakültəsində təhsil almağa başlayır.





Sara xanım üç avropa (fransız, ingilis, alman) və üç şərq (ərəb, fars, türk) dillərini sərbəst bildiyi üçün dövlət təhlükəsizliyi orqanları tərəfindən həmin dilləri daşıyan ölkələrin xeyrinə casusluqda günahlandırılsa da bədxahların əməlləri boşa çıxır.

Üç il sonra – 1940-cı ildə böyük qardaşı ürəktutmadan vəfat edir. Ailəni aclıqdan Sara xanım xilas edir. O, bir neçə Avropa dili bilirdi və tərcüməçi kimi işə düzəlir. Saranın sayəsində ailə ayaq üstə durur, bacıları təhsil alırlar, qardaşı Rişad bəy tibb institutunu bitirir. II Dünya müharibəsi zamanı o, hərbi-səhra hospitalında həkim işləyir və 1944-cü ildə Budapeştin alman faşistlərindən azad edilməsi zamanı həlak olur. Bacıları onun ölümünü uzun illər analarından gizlədirlər. İsmət xanım 1954-cü ildə, toyunun 50-ci ildönümü günündə vəfat edir.

Artıq məşhur tarixçi olan Sara xanım xatirələrində yazırdı: "Mən 120 məqalə və dörd kitabın müəllifiyəm. "Şirvanşahlar dövləti" kitabına görə üç mükafat almışam – "əməkdar elm xadimi" adı, SSRİ Dövlət mükafatı və "Şöhrət" ordeni. Mənim kitablarımda rəhbərlərə və marksizm-leninizm klassiklərinə istinadlar yoxdur. Mənim kitablarımı açın, orada Lenindən, Stalindən, Bağırovdan, Xruşşovdan, Brejnevdən, Qorbaçovdan sitatlar görməzsiniz. Onların tarixi mənim ürəyimi parçalayıb, məni doğmalarıma həsrət qoyub, bizim gözəl evimizi dağıdıb. Mənim devizim – hakimiyyətlə heç bir kompromisə getməməkdir. Atam Bala bəy də belə idi. O, tarixdə neft sənayeçisi kimi qalıb, onun öhdəsindən nə Nobel qardaşları gələ bilib, nə Bağırov, nə də Stalin".

Sara xanım Aşurbəyli danışardı ki, Murtuza Muxtarovun ölümündən sonra onun dul qalmış gənc xanımı – Lıza xanıma tez-tez anası İsmət xanımla birlikdə baş çəkər, ona azacıq da olsa kömək edərmişlər.

Talenin bütün keşməkeşlərinə baxmayaraq, Sara xanım Aşurbəyli bütün ömrü boyu Azərbaycan vətənpərvəri olaraq qalırdı.

O, özünün yüksək intellektini Azərbaycan xalqının rifahı, onun tarixi, mədəniyyəti naminə tətbiq etməyə çalışırdı. Sara xanım Aşurbəyli XX əsrin inqilabdan əvvəlki, sovet və postsovet dövrlərindəki Azərbaycan qadınının yeni obrazının təcəssümü idi.

Sara Aşurbəyli xatirələrində yazır ki, bu nəsil haqqında daha bir səciyyəvi detal ondan ibarətdir ki, onların heç bir təmsilçisi mühacirətdə dünyasını dəyişməyib: «Hətta 20-ci illərin əvvəllərində Bakını tərk etməyə məcbur qalanlar sonralar bu ayrılığa dözməyərək qayıdıblar. Vətəndə onları təqiblər, məşəqqətlər, repressiya dəhşətləri gözləyirdi. Sovet hakimiyyəti illərində Aşurbəyovlar nəsli nəinki bütün maddi bazalarından, o cümlədən onlarla mülklərindən, evlərindən, torpaq sahələrindən, neft mədənlərindən və müəssisələrindən tamamilə məhrum edilmələrinə, həm də özlərinin ləyaqətli təmsilçilərini itirmələrinə, repressiyaya məruz qalmalarına, İkinci Dünya müharibəsində həlak olmalarına, İstanbuldan Parisə qədər dünyanın çox yerinə səpələnmələrinə baxmayaraq, onlar yenə də öz fəaliyyətlərini mütərəqqi istiqamətdə davam etdiriblər».

O, bu nəslin ən görkəmli təmsilçilərindən biri olaraq Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin tarixinin ümummilli səviyyədə tədqiqinə gerçəkdən misilsiz töhfəsini verib. Faciəli tale nəsib olmuş Sara xanım orta əsrlər Abşeronunun fundamental araşdırıcısı olaraq bütün dünyada tanınır. Məhz Sara xanım Aşurbəyovanın səyi nəticəsində əsilzadə Aşurbəyovların geniş nəsil şəcərəsini bərpa etmək mümkün olmuşdu.

S.Aşurbəyli həm də rəssam və musiqiçi idi. Dram teatrında rəssam və dekorator, məktəbdə müəllim işləyib, müəllimi Üzeyir Hacıbəyovun dəvəti ilə 15 il konservatoriyada xarici dildən dərs deyib, eləcə də çəkdiyi rəsm əsərlərini sataraq dolanıb. 1993-cü ildən ömrünün sonuna qədər Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi olub.





S.Aşurbəyli "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri" və "Şirvanşahlar dövlətinin tarixi" kitablarının müəllifidir. Bu tədqiqatlarına görə Sankt-Peterburqda tarix elmləri namizədi, Tbilisidə isə, 1966-cı ildə tarix elmləri doktoru adına layiq görülüb. Azərbaycan tarixinə, mədəniyyətinə həsr etdiyi məqalələrinə, tədqiqatlarına görə Azərbaycan Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeni və respublikanın əməkdar elm xadimi adı ilə mükafatlandırılıb.

Sara xanımı Azərbaycan tarixşünaslığında əbədi yaşadan onun qədim Bakının (İçəri Şəhərin) tarixinə dair olan tədqiqatlarıdır. O, "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri" və "Şirvanşahlar dövlətinin tarixi" kitablarının müəllifidir. Sara xanım ilk və yeganə tarixçidir ki, öz həyatını Bakı (İçəri Şəhər) və Şirvanşahlar dövlətinin tarixinin tədqiqinə həsr etmişdir. Bu əsərlərdə Qədim Bakının yaranma tarixi, orta əsr Bakısının siyasi tarixi, mədəniyyəti, sosial münasibətləri əks olunmuşdur. Minillik tarixə malik, İçəri Şəhər memarlığının formalaşmasına böyük təsir göstərmiş qüdrətli Şirvanşahlar dövlətinin sosial-siyasi, iqtisadi, mədəni həyatı VI əsrdən XVI əsrə kimi zəngin mənbələr əsasında araşdırılmış, Şirvanşahlar sülaləsinin tarixi, şəhərlərin iqtisadi vəziyyəti və inkişafı, əhalinin tərkibi, feodal cəmiyyətinin quruluşu kimi məsələlər geniş tədqiq olunmuşdur.

Bu insanın həyat yoluna nəzər salanda, onun bacarıqlarına, elmlə məşğul olmaq həvəsinə heyran qalırsan. 1941-ci ildə o ingilis dili fakültəsi ilə yanaşı Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq məktəbini də bitirir. Həm rəssamlıq, həm də musiqi istedadı ağır repressiya illərində onun əlindən tutur. Dram teatrında rəssam, dekorator işləyir. Müəllimi olmuş Ü.Hacıbəyovun dəvətilə 15 il konservatoriyada xarici dilləri tədris edir. Bəzən də öz rəsm

əsərlərini sataraq dolanır. 1946-cı ildə Sara xanım Azərbaycan Rəssamlıq İttifaqının üzvü seçilir.

Sara xanım xatirələrində yazırdı: "məndən tez-tez soruşurlar: necə oldu ki, Sovet hakimiyyəti dövründə belə uğurlar qazıandınız? Deyirəm ki, məndə doğma şəhərimizin tarixinə həmişə qeyri-adi maraq olub. Mən İçərişəhərin küçərərini gəzir, qocalarla söhbət edir, qədim yazıları oxuyurdum. Ərəb, fars, türk dillərini bilməyim mənə tarixi məxəzlərdən istifadə imkanını vermişdi. Ona görə də şəhərin tarixini ilk mənbələrdən öyrənirdim."

Mən Sara xanımla erkən yaşlarımda tanış oldum. Atam, Fərhad İbrahimov Bakı arxeoloji ekspedisiyasının rəhbəri idi. O da arxeoloji qazıntılar və maddi-mədəniyyət abidələrini tədqiq edərək Bakı şəhərinin tarixini öyrənirdi. Sara xanımla atam bir institutda işləyirdilər, iş yoldaşı idilər. Yadımdadır, Bakının tarixini öyrənən üç böyük sima – tarixçı Sara Aşurbəyli, arxeoloqlar Ömər İsmizadə və Fərhad İbrahimov həm də dostluq edirdilər. Tez-tez onların uzun-uzadı söhbətlərinin şahidi olurdum. Kənarda oturub diqqətlə qulaq asardım. İndi düşünürəm ki, Bakı şəhərinə olan hədsiz sevginin təməli elə o vaxtlar, şəhərin tarixini araşdıran nəhənglərin söhbətlərində qoyulub.

Sara xanımla bağlı çox xatirələrim var. Sara xanım atamın anası yaşında – yəni, mənim nənəm yaşında idi. Atam onun sözlərini eşidər və ona çox böyük hörmət edərdi. O, tez-tez atama zəng vurar, Bakıdan tapılan arxeoloji artefaktlar barədə informasiyalar alardı. İçərişəhərdən arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət abidələri haqqında danışır, şəhərin tarixi barədə mübahisə edərdilər. Atam qısqanclıq hissi duymadan, böyük məmnuniyyətlə hər incə məqamı və elmi dəlilləri ona danışardı. Təsadüfi deyil ki, Sara xanımın Bakı şəhərinin tarixi adlı kitabında atamın adı xeyli hallanır, onun elmi məqalələrinə istinad edilir.





Yadımdadır, Sara xanım alçaq boylu, üzü nurlu, yumru bir qadın idi. İnstitutda onun xüsusi hörməti vardı. Həmişə üzü gülərdi. Ömrü boyu keçirdiyi məşəqqətlərin izləri üzündə bəlli deyildi. Hər kəs onun maraqlı söhbətlərini dinlər və məsləhərt alardı. Aspirantlara, dissertantlara hər zaman kömək edərdi. Sara xanım uzun illər rusdilli mühitdə yaşamış, rusca yazıb-yaratmışdı. Qeyd edim ki, O məqalələrinin əksəriyyətini rus dilində yazardı. Buna baxmayaraq, yaşının ixtiyar çağında, respublikamız müstəqillik qazanandan sonra yazıda da, danışıqda da Azərbaycan dilinə keçmişdi. Bizə deyirdi: "Mən daha rusca yazmıram, keçmişəm Azərbaycan dilinə. Siz də Azərbaycanca yazın!" Qoy əsərlərimiz Azərbaycan dilindən rus dilinə tərcümə olunsun. Çapa təqdim etdiyi kitablar arasında rusca olanları tələb edirdi ki, əsər mütləq həm də ana dilimizə tərcümə edilsin.

Bir neçə məqaləsini mən azərbaycan dilinə tərcümə etmişəm. Tərcümə olunmuş yazılar, qəzet üçün hazırlanıb çapa imzalanmazdan əvvəl müəllif tərəfindən diqqətlə oxunurdu. Böyük alim hər bir söz, ad, fakt üzərində, necə deyərlər, əsirdi. Hətta son illər səhhətinin pis olmasına baxmayaraq, məqalələrin son variantını oxumağa həvəslə gəlirdi. Bu məsuliyyət, bu incəlik məni az qala təəccübləndirirdi. O, çox sanballı bir insan idi. Xalqına böyük sevgi və sədaqət bəsləyən, Şərq mentalitetinə dərindən bələd olan bu insanın üstəlik də, rusca mükəmməl təhsil alması, yüksək Avropa mədəniyyətinə yiyələnməsi xarakterində tam bir vəhdət yaratmışdı.

Bu xatirə heç yadımdan çıxmır: 1986-cı ilin dekabr ayının axırları, çərşənbə günü idi. Kitabxana günü olduğundan atam və mən işə getməmişdik. Axşamüstü saat 4 radələrində bir telefon zəngi oldu. Dəstəyi mən qaldırdım. Xəttin o başında Sara xanım idi. Hal-əhvalımı sordu, yeni ili təbrik etdi, sonra atamı istədi. Yenə də maraqlı bir söhbətin şahidi oldum. O atama deyirdi ki İnstitutda maaş verirlər, gəl al. Atam isə "Sara xanım sabah cümə günü iş günüdür

gəlib alaram da dedi. Yox sənə deyirəm indi gəl. Bu hökümətin işini bilmək olmaz. Özü də Dərnəgüldəki qastranoma ərzaq gətiriblər. Nə qədərki növbə yoxdur, ya da qurtarmayıb get bazarlıq elə. Bir neçə gündən sonra yeni il gəlir. Uşaqlar ac qalmasın!". Bir dostun, iş yoldaşının bu qədər qayğıkeşliyini, mehribançılığını necə unutmaq olar.

Sara xanım haqqında çox danışmaq olar və güman edirəm, bundan sonra daha da çox danışılacaq, haqqında kitablar, xatirələr yazılacaqdır. Çünki o, öz varlığı ilə elə bir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik.

Çox dəyərli və çətin lakin uzun və şərəfli ömür yaşayan Sara xanın iyunun 17-də 2001-ci ildə, 96 yaşında bu dünyadan köçdü. Azərbaycan tarixinə, mədəniyyətinə həsr etdiyi məqalələrinə, tədqiqatlarına görə Azərbaycan Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeni və respublikanın əməkdar elm xadimi adı ilə mükafatlandırılıb. Son illərdə zamanın darlığından gileylənən Sara xanım narahat getdi. Bütün düşündüklərini həyata keçirə bilməyən tarixçi alim, özünü bir musiqiçi, bir rəssam kimi təsdiq edə bilməsə də böyük bir şəhərin tarixini yazaraq milyonlarla insanların qəlbində özünə əbədi bir heykəl qoydu.





**Dilavər Əzimli**
*tarix üzrə fəlsəfə doktoru*

# Orta əsrlərdə Azərbaycan - Hindistan iqtisadi və mədəni əlaqələri Sara Aşurbəylinin tədqiqatlarında

Yaxın və Orta Şərq xalqları tarixinin mahir bilicisi olan və Azərbaycanda sayılıb-seçilən, bu xalqın seçilmiş nəsillərindən sayılan Aşurbəylilər nəslinə mənsub Sara xanım Aşurbəyli Azərbaycanda yetişən nadir istedadlı qadın şəxsiyyətlərimizdən biridir. O, həm də gözəl rəssam və müsiqiçi idi. O, çətin və ağır bir həyat yolu keçmişdir. Atasının təqibi, ölümü, həyat yoldaşının həbs olunması, qardaşının İkinci Dünya müharibəsində həlak olması onu sındıra bilmədi. Bu xanım üç Avropa (ingilis, fransız, alman) və üç Şərq (ərəb, fars, türk) dillərində sərbəst yazıb-oxuya bilirdi. Bu cür yaradıcılıq ona xöşbəxtlik gətirmək əvəzinə, onun təqib olunmasına şərait yartmış oldu. SSRİ Dövlət təhlükəsizlik orqanları tərəfindən həmin dilləri daşıyan ölkələrin xeyrinə casusluqda təqsirləndirilməyə başlandı. Amma o, bundan ruhdan düşmür və özünün yüksək intellektini Azərbaycan xalqının rifahı, onun tarixi, mədəniyyəti naminə tətbiq etməyə çalışırdı.

Sara xanım Aşurbəyli Azərbaycan tarixi üçün çox qiymətli tədqiqatların-tarix, mədəniyyət incəsənətinə dair əhəmiyyətli məqaləlılərin müəllifidir. Onun tarix elmində özünəməxsusu yolu olmuşdur. O, Azərbaycan tarixində bu gün də önəmli rol oynayan dəyərli tarixi kitabların, elmi monoqrafiyalırın, yüzlərlə məqalənin müəllifi, bir sıra beynəlxalq konfransların iştirakçı olmuşdur. O, tarix elmləri doktoru, əməkdar elm xadimi, dövlət mükafatı laureatı kimi yüksək adlara layiq görülnüşdür. Təbii ki, böyük əzablar yaşayan

Azərbaycanın seçilmiş nəsillərindən birinə məxsus olan Sara xanım üçün bunlar çox azdır. Amma sevindiricidir ki, Sovetlər dönəmində böyük əzablar yaşayan bu nəslin nümayəndəsi olan Sara xanım Aşurbəyliyə Azərbaycanın ikinci dəfə müstəqilliyini görmək nəsib oldu. Aldığı ən böyük mükafat da məhz Azərbaycanın ikinci dəfə müstəqilliyi dövründə baş verdi. Sara xanıma Azərbaycan dövlətinin ən ali mükafatı sayılan "Şöhrət ordeni" 1996-cı ildə, yəni 90 illik yubileyi ərəfəsində verildi.

Mən özümüzün tarix üzrə fəlsəfə doktoru olmaq üçün çalışdığım mövzunu işləyərkən bu böyük insanın elmi yaradıcılığı ilə dərindən tanış oldum. Bu insan orta əsrlər Azərbaycan tarixinin ən layiqli araşdırıcılarından biridir. Bu haqda çox yazılıb və yazılcaqdır da... Çoxları da bundan xəbərdardır. Amma bu yazıda diqqətinizi onun məşğul olduğu Azərbaycan-Hindistan əlqaələrinə yönəltmək istərdim. Orta əsrlərdə Azərbaycan-Hindistan əlaqələrni onun kimi ustalıqla ortaya qoyan az sayda nadir mütəxəssislər vardır. Sara xanım bunların içərisində xüsusi yer tutur, bəlkə də onların birincisidir. Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələrini fundamental şəkildə araşdıran Sara xanım Aşurbəyli elmə təkcə yeniliklər gətirməmiş, həm də bu əlaqələrdə Azərbaycanın çəkisini müəyyənləşdirə bilmişdir.

Azərbaycan qədim zamanlardan Şərq-Qərb istiqamətində təşəkkül tapmış, inkişaf edən ticarət sisteminin tərkib hissəsi sayılırdı. Qədim dövrdə və orta əsrlərdə Şərq ölkələri ilə Avropa arasında ticarət əlaqələri başlıca olaraq Qara dəniz və Aralıq dənizi sahillərindəki ticarət mərkəzləri vasitəsilə həyata keçirilirdi . Dünyanın ən məşhur ticarət yolları, Çindən Aralıq dənizi sahillərinə yönəlmiş "Böyük ipək yolu" Azərbaycan ərazisindən keçirdi .

XV əsrin II yarısından etibarən Xəzər dənizinin beynəlxalq ticarətdə rolu daha da artdı. Vəziyyətin bu cür dəyişməsi Bakını Xəzər dənizi hövzəsinin əsas liman şəhərinə çevirdi (Dərbənd bir





liman şəhəri kimi bu dövrdə artıq öz əhəmiyyətini itirmişdi-D.M.). Venesiyalı səyyah Donato da Leze bununla bağlı öz qeydlərində göstərir ki, Bakı şəhəri ticarət əməliyyatlarında mühüm əhəmiyyətə malik idi. Səyyah qeyd edir ki, ədviyyat Hindistandan böyük şəhər olan Şamaxıya daxil olur, buradan isə dörd günlük məsafədə Xəzərin sahillərində yerləşən Bakı şəhərinə doğru yönəlir. Ədviyyat Bakıda gəmilərə yüklənir və Volqa (İtil) çayının sahillərində yerləşən «tatar» şəhəri Həştərxana çatdırılırdı.

Həmin dövrlərdə Hindistana sahiblik uğrunda gərgin mübarizə gedirdi. Hörmüz o dövrdə okean ticarətini bür müddət əllərində saxlayan portuqalların Hindistana yönələn okean yolunda başlıca məntəqə rolunu oynamalı idi. Bu məntəqəyə sahib olmaqla portuqallar Hindistan və səfəvilər arasında gedən bütün okean ticarətini ələ keçirmək və səfəviləri bu ticarətdə bütünlüklə özlərindən asılı hala salmaq istəyirdlər. Həmin ticarət öz həcminə görə çox böyük idi. Bu ticarət səfəvilərə hədsiz dərəcədə gəlir gətirirdi. Başlıca əmtəə isə ədviyyat idi. Səfəviləri Hindistan tacirləri ədviyyatla təmin edirdilər. Portuqaliya Hörmüzü ələ keçirdikdən sonra hind tacirlərinin Səfəvi dövləti ərazilərinə gətirdikləri ədviyyatın həcmi kəskin şəkildə azaldı. Həmin ədviyyata sahib olan portuqallar isə bu məhsulu okean yolu ilə Qərbi Avropya daşıyır, baha qiymətə satırdılar. Hörmüzü ələ keçirdikdən sonra Hindistanla səfəvilər arasında gedən okean ticarətini inhisara almış portuqallar səfəvilərə özlərinin ticarət şərtlərini qəbul etdirməyə başladılar. Məhz buna görə də səfəvilərlə portuqallar arasında ciddi ticarət ziddiyyətləri yarandı. Bu isə tez-tez hərbi toqquşmalara gətirib çıxarırdı. Bu cür toqquşmalar zamanı portuqallar səfəvilərin Hörmüzə çıxışını bağlayır, bununla səfəvilərin Hindistanla okean ticarəti kəsilirdi. Bu tədbir nəticəsində Səfəvilər imperiyasına böyük ziyanlar dəyirdi.

XV əsrin sonlarında Hindistana dəniz yolunun açılması

Avropanın bu ticarətə birbaşa çıxışı olmayan digər dövlətlərini yeni yollar axtarmağa məcbur etdi. Bu, Şərqi Avropanı keçməklə Ağ dənizdən başlayan, Şimali Dvina çayını, Volqa çayını və Xəzər dənizini keçməklə Azərbaycandan İrana, oradan isə Hindistana gedən ticarət yolu idi. Hömin dövrdə böyük həcmdə ipəyin istehsal olunduğu Azərbaycan və İran beynəlxalq ticarətdə mühüm əhəmiyyət kəsb edirdi. XVI əsrin əvvəllərində Azərbaycanın iri şəhərlərində qızğın ticarət gedir və bu şəhərlərdə xarici ölkələrdən gəlmiş tacirlər məskən salırdılar. Bu dövrdə yaranmış vəziyyətlə əlaqədar Şamaxı bölgəsi beynəlxalq ticarətdə xüsusi çəkiyə malik idi. Bakıda və Şamaxıda xeyli sayda Hindistan taciri yaşayırdı. Bu Hindistan-Avropa ticarət əlaqələrində Azərbaycanın mühüm rolunun bariz nümunəsidir. Hindistandan gəlmiş tacirlər Azərbaycan şəhərlərində karvansaralara malik idilər və ölkədə geniş ticarət şəbəkəsi yaratmışdılar. Bakı şəhərinin qədim hissəsində-İçəri şəhərdə yerləşən, XV-XVI əsrlərə aid olan Multanı karvansarası bunu sübut edən abidədir. Bu karvansara Hindistanın Multan şəhərindən gəlmiş tacirlərinin fəaliyyəti ilə bağlı olmuşdur. Şamaxıya və Bakıya gələn hind tacirləri ədviyyatdan başqa, Azərbaycana Kəşmir parçalarını da gətirirdilər. «Tirmə» adlanan bu parçalar qızıl pula satılırdı və ona böyük tələbat var idi. Bakı və Şamaxı şəhərlərindən bəhs edərkən həmin dövrdə Xəzər dənizinin əhəmiyyətindən danışmaq vacibdir. Xəzər dənizi hələ XV əsrin II yarısında beynəlxalq ticarətdə mühüm əhəmiyyət kəsb edirdi. Dərbəndin bir liman kimi əhəmiyyəti azaldığından, Bakı Xəzər dənizinin əsas liman şəhərinə çevrildi. XV əsrin sonunda Azərbaycanda olmuş venesiyalı səyyah Donato da Leze Bakının ticarət əhəmiyyətindən qeyd edirdi: «Hindistandan gətirilən ədviyyat Şamaxıya, oradan da Bakıya daxil olur. Şəhərdə qızğın ticarət gedir. Əmtəələr gəmilərə yüklənir və Həştərxana yola salınır» Bakıdan aparılan əsas əmtəə məhsulları xam ipək, neft və duz idi. Bu məhsullar Şimali İrana, Orta (Mərkəzi) Asiyaya,



Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il | 2016

Hindistana, Həştərxan vasitəsi ilə Moskva knyazlığına, oradan isə Avropa ölkələrinə aparılırdı. XVI əsrdə beynəlxalq tranzit ticarətində Azərbaycanın Ərəş şəhərinin çəkisi xüsusilə artdı. Mənbə məlumatlarına görə bu şəhərdə 800-ə yaxın dükan və xeyli karvansara var idi. Ərəş şəhəri Gəncə istiqamətində-Xaldan yaxınlığında yerləşirdi və Şamaxıdan oraya dəvə ilə dörd günlük yol qət etmək lazım idi. Bu şəhər XVI əsrin ticarət münasibətlərində Şamaxını geridə qoyurdu. Ərəşə xeyli əcnəbi tacir gəlirdi. Onların üçərisində Osmanlı türkləri, suriyalılar və hindlilər daha çox idi. Hindistan tacirləri buraya boya məhsulları və ədviyyat gətirirdilər . Hind okeanı və ona bağlı olan dənizlər XVI əsrə qədər müsəlmanların nəzarəti altında olmaqla «müsəlman dənizi» adlandırılmışdır. Başda ərəblər olmaqla, müsəlman gəmiləri bu dənizlərdə dolaşır, müxtəlif əmtəələr daşıyırdılar. XVI əsrdə isə Portuqaliya böyük bir dəniz dövlətinə çevrildi. Onun başlıca məqsədi Hind okeanına sahib olmaq, Asiya məhsullarını Avropaya daşımaq, həmin əmtəələri Lissabondan bütün Avropaya paylamaq idi. Lakin onlar Osmanlı imperiyasının digər müsəlman dövlətlərinə nisbətən ciddi dəniz qüdrətinə malik olduğunu gördükdə özlərini itirdilər. Tarixi məlumatlar sübut edir ki, portuqaliyalılar yaxaladıqları müsəlman gəmilərinin bütün heyətini işgəncə verməklə öldürür, müsəlmanların Hind okeanına çıxmasını əngəlləməyə çalışırdılar. Məlumdur ki, Asiya ölkələrindən aparılan məhsullar Avropada 20 qat bahasına satılırdı.

XVII əsrdə Azərbaycandan Osmanlı dövlətinə və Avropa ölkələrinə xeyli miqdarda pambıq, yun, düyü, boyaq məmulatı, xüsusilə boyaq otu ixrac olunurdu. Azad (Azadabad) şəhəri və onun ətrafı dünyada boyaq otunun ən böyük tədarükçüsü kimi tanınırdı. Hindistandan Hörmüzə daxil olan gəmilər geri qayıdarkən bütünlüklə Azərbaycandan aparılan boyaqotu ilə yüklənirdilər. Ümumiyyətlə, XVII əsrin əvvəllərində Azərbaycanla Hindistan arasında ticarət

dövriyyəsi daha da artdı. XVII əsrdə Hindistan məhsulları Qərbi Avropaya və Moskva knyazlığına Volqa–Xəzər yolu ilə çatdırılırdı. XVII əsrdə bu ticarətdə başlıca mərkəzlər Bakı, Şamaxı, Şabran, Ərdəbil və Təbriz şəhərləri idi. Hindistan tacirləri Azərbaycanın xarici ticarətində mühüm rol oynayırdılar. Onların burada çoxlu ticarət məntəqələri var idi. A.Oleari və J.Tavernyeyə görə, Səfəvi dövləti ərazisində onların sayı 10–12 min, J.Şardenə görə isə 20 min idi. Y.Streys də öz məlumatlarında Şamaxıda yüzə qədər hind tacirini gördüyünü qeyd edir. Bu dövrdə Bakıda və Şirvanın digər şəhərlərində əmtəə–pul münasibətlərinin inkişafını sübut edən faktlardan biri də bu ərazilərdə XVI–XVII əsrlərə aid iri həcmdə mis pulları xəzinəsinin aşkar olunmasıdır .

Bu kiçik məqalədə orta əsrlərdə Azərbaycan-Hindistan əlaqələrinə aydınlıq gətirdik. Bütün bu məlumatların əldə edilməsində Sara xanım Aşurbəylinin tədqiqatları bizə çox böyük yardımçı oldu. Azərbaycan tarixində silinməz izlər qoyan bu xanımın elmi yaradıcılığı xarici ölkə tarixşünaslığında da ən çox istinad olunanlardandır.





**Qənirə Pirquliyeva**
*tarix üzrə fəlsəfə doktoru*

## Sara Aşurbəylinin fransız dili sevgisi – mənim həyatımda

Hər bir kəsin elmlə məşğul olmağa başlaması könüllü fədai olmağa razılıq verməsidir. Uzun illərdən sonra öz həyat təcrübəmin ən böyük nəticəsini mən belə ifadə edirəm. Fədailik qazilik, dərvişlik, əhli xərabat kimi tərki dünyalıq olmasa da, həyatın gözəlliyini kitablarda, yazıda görmək kimi bir qəhrəmanlıqdır. Bu mürəkkəb, ağrılı, sonu görünməyən yolda ilk cığıra düşməyin də başqa bir anlamı və dəyəri var. Bu ilk cığırda mənim də yola çıxmağıma biri çox alimlərin çox böyük, qiyməti heç nə ilə ölçülməyən rolu olmuşdur. Yaşımın az olduğu zamanlarda mən hələ belə insanların kim olduğunu və ümumiyyətlə, bütöv bir xalqın həyatında nə qədər önəmli yerdə durduğunu dərk etmirdim. Bu gün-uzun illərdən sonra yenidən geriyə baxanda, o insanlara minnətdarlığımı heç olmasa belə xatirələrlə ödəyə bilsəm, bəlkə də borcumdan çıxa bilərəm.

90-cı illərin əvvəllərində, ölkəmizin o qarışıqlıq zamanında özümdən asılı olmayan hansısa bir qüvvə məni aspiranturaya sənəd verməyi tələb etdi. Ali təhsilimi bitirdikdən sonra ciddi akademik elmlə məşğul olmaq arzum o qədər də yox idi. Bunun da əsas səbəbi anadan olub böyüdüyüm cəmiyyətin və dövlətin dağılması, yeni bir quruluşun yaranması prosesinin dəhşətlər içərisində başlanıb, davam etməsi idi. Nə isə...içimdən "getsin o günlər gəlməsin" fikri keçir. Belə, aspiranturaya qəbul olmaq üçün imtahanlar verməli idim. Bu imtahanlardan biri də fransız dili idi. İmtahan komissiyasının tərkibi ilə tanış olduqda rəhmətlik Sara xanım Aşurbəyli də var idi. İlk anda

Sara xanımı səhvən xarici dil imtahanında sədr olmasını fikirləşdim. Bir də dəqiqləşdirəndə səhv deyil, həqiqətən Sara xanımın məhz ixtisasdan deyil, fransız dilindən imtahana rəhbərlik etməsini təsdiqlədilər. Tələbəlik illərim Azərbaycanda keçmədiyi üçün tarixçi alimlərimizi o qədər də yaxşı tanımırdım. Sara xanımın əsərlərini isə hamısını oxumuşdum. Amma xanımın fransız dilini yüksək səviyyədə bilməsi və bu səbəbdən imtahana başçılıq etməsini heç təsəvvür belə etmirdim. Şəxsən onunla tanış deyildim. Yalnız böyük həvəslə ayda bir dəfə mühasibatlıqdan maaş alanda üzündən nur əskik olmayan, danışmağı o qədər də sevməyən bu xanımı görmək üçün (yanında başqa bir yaşlı xanımla görürdüm) növbəmi uzadırdım. Bir çoxlarından fərqli olaraq heç vaxt növbəsində səs salmazdı. Sakitcə maaşını alıb gedərdilər.

Beləcə, imtahana hazırlaşıb birinci mərtəbədə yerləşən aspirantura şöbəsində kiçik bir otağa daxil oldum. Cəmi 3 nəfər bu dildən imtahan verirdi. İki nəfər ədəbiyyat üzrə gənclər idi. Bir də mən tarixin arxeologiya bölməsinin numizmatika qrupuna ayrılan bir yerə sənəd vermişdim. Sözsüz ki, tək tarixçi olaraq fikirləşirdim ki, mənə daha çətin olar bu imtahan. Çünki Sara xanım yazmış olduğu əsərlərdə fransız dilli ədəbiyyatdan geniş istifadə etmişdi. Demək dilin bütün özəlliklərinin çox yaxşı bilicisi idi. Mən isə universitetdən sonra bu dildə heç nə oxumamışdım. Demək olar ki, yadımdan çıxmışdı. Beləcə bilet götürüb yerimə keçdim. Sualların cavabı çətin olmasa da şifahi müsahibədən narahat idim. Cavab verməyə başlayanda Sara xanım mənə çox diqqətlə qulaq asdı. Nəhayət, şifahi müsahibədə xanım mənə bu dildə çox oxumağı məsləhət gördü. Yanında oturanlar da bunu eşitdilər. Amma Sara xanım mənə 5 qiymət yazmağı onlara məsləhət görəndə etiraz etdilər. Sara xanım yenə də mənə müraciət edib ailəli olub olmadığımı soruşdu. Tamamilə özümü itirmişdim. Qiymətin fərqi yox idi. Cavab verdim ki, iki kiçik yaşlı övladlarım uşaq





bağçasındadırlar. Onsuz da digər iki nəfərin bu soyuq münasibətindən durub çıxıb getməyə qərar vermişdim. Sara xanım sanki başa düşdü bunu. Ordan durub getsəydim ümumiyyətlə, aspirantura məsələsi tamam bitəcəkdi . Sara xanım yenidən mənə 5 yazmağa razılaşdı. Amma bir şərtlə ki, aspiranturanın sonunda imtahan verəndə ciddi hazırlaşmalı idim. Çox sevindim. Beləcə mənim sanki qolumdan tutub körpə uşaq kimi yol göstərdi mənə. İkinci dəfə müdafiədən öncə yenidən imtahan verəndə artıq Sara xanım işə çıxmırdı. Amma mən artıq müəyyən həyat təcrübəsi keçmişdim.

Bu mənim Sara xanımla ilk və son tanışlığım oldu. Əsil tanışlığım və onunla öz özlüyümdə mükalimələr qurduğum vaxtlar onun son əsərləri –Şirvanşahlar dövləti və Bakı şəhərinin tarixi adlı monoqrafiyalarını oxuyan zaman başladı. Bu zaman mən elmi işimin müdafiəsinə hazırlaşırdım. Orta əsrlər Azərbaycan tarixinin problemləri ilə məşğul olduğum üçün mütləq bu əsərləri ciddi oxumalıydım. İlk dəfə bu kitabları oxuduğum zaman mən araşdırdığım numizmatik materialların nə qədər əhəmiyyətli maddi-mədəniyyət nümunələri olduğunu tarixi monoqrafiyada əsas mənbə kimi qəbul edildiyini başa düşdüm. Nə həmin illərdə, nə ondan sonra tarixçi alimlər bu mənbələrə ən son yerdə müraciət edirlər, ya da heç ciddiyə almırlar. Yalnız Sara xanımın əsərlərində sikkələr təkzib edilməz faktor kimi öndə göstərilirdi. Buna görə də dərin hörmətlə və bütün ciddiliyimlə bu iki əsərlə dəfələrlə tanış oldum. Beləcə fransız dilində istinad etdiyi əsərləri tapdıqca bir də bu dildə oxudum. Əslində bu əsərlərin bir çoxu ölkəmizin kitabxanalarında yoxdur. Bəzi məqalələri tapa bildim. İşimlə əlaqəli ciddi olaraq Sara xanımın tələbini yerinə yetirdim. Bu əsərləri fransız dilində oxudum. Bununla da mənbələri öz dilində oxumaq kimi xüsusiyyətini özümdə formalaşdırdım. Bu qaydanı yerinə yetirməyi mənə Sara xanım tövsiyyə etmişdi. İnsan mənə inanmışdı. Əgər inanmasaydı, etibar

etməsəydi mən ümumiyyətlə elmlə məşgul olmayacaqdım. Əsil ziyalı olaraq görünür anlamışdı mənim həvəsimi. Allah min rəhmət etsin. Azərbaycan tarix elmi mənim bu işlə məşğul olub olmamağımla inkişafdan geri qalmayacaqdır. Amma mənim ziyalı kimi formalaşmağımda bu cür, heç bir təmənnasız, qolumdan tutması həyatımda mühüm rol oynadı. Uzun illər keçməsinə baxmayaraq xanımın tapşırığı qulağımda qalan "ən gözəl sırğadır". Vaxtım olan kimi mütləq bu dildə oxuyram.

Bizim nəslin gördüyü, yaşadığı dəyərlərin itdiyi, başqa məcraya yönəldiyi bir dövrdə belə hadisələri bilmək lazımdır. Bu gün ali məktəbdə tədrisdə məşğul olmağımla əlaqədar həyatımda olan bu insanların, o cümlədən Sara xanım Aşurbəylinin mənə verdiyi həyat dərslərini tələbələrimə qaytarıram. Lazım gələndə, istiqamət vermək zamanı çatışmazlığa göz yuman vaxtlarım da olur. Kim bilir, bəlkə onlar gələcəkdə elmin bir ulduzu olacaqlar. Başa düşdüyüm bir həqiqət də ondan ibarətdir ki, hər kəs aldığını geri qaytarmalıdır.

Bu gün mən və mənim kimi Sara xanımı yad etməyə xatirələri olan insanlar varsa, demək alim yaşayır. Bizlərdən sonra qalan əsərləri insanlara həmişə lazımlı olacaq. Demək ölməzliyi qazanmaq üçün uzaq ölkələrə gedib "dirilik suyu" axtarmağa gərək yoxdur. Ölməzlik insanın zəhməti ilə əldə edilir. Sara xanımın o gözəl heykəli əsrləri ilə bizlərin qəlbindədir.



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

## Sara Aşurbəylinin rənglər dünyası

Azərbaycan ictimaiyyəti Sara xanım Aşurbəylini (1906-2001) dünyaşöhrətli tarixçi-alim kimi tanıyır. Məşhur Aşurbəylilər nəslinin təmsilçisi olan və bütün fəaliyyəti boyu Azərbaycan tarix elmini şərəfləndirən və xalqımızın qürurdoğurucu uzaq-yaxın keçmişinə işıq salan – "Şirvanşahlar dövləti" və "Bakı şəhərinin tarixi" kimi fundamental əsərlər yaradan Sara xanım həm də incə duyumlu gözəl rəssam olmuşdur. Elmi fəaliyyəti respublika Dövlət mükafatına layiq görülən alim, həm də Azərbaycan Rəssamlar İttifaqının üzvü idi...



Dövrünün tanınmış zadəgan ziyalılarından sayılan Balabəy Aşurbəylinin ailəsində dünyaya göz açan Sara xanım zamanında bir çox sahələr üzrə təhsil alması adi məntiqlə ona işıqlı gələcək vəd etsə də, kommunist rejiminin çox vaxt ağı-qaradan seçməkdə çətinlik çəkən siyasəti bu nəslin xalqı üçün gördüyü sayagəlməz xeyirxahlıqları insafsızcasına görməməzliyə vurmaqla, onların bütün mənalarda təqibinə başlamışdı. Müxtəlif formalı bu

təpkilər gənc Sara xanımdan da yan keçmədi. Başqa sözlə desək, sonrakı taleyi onu çox sınaqlara çəkməli oldu...



Atasının və həyat yoldaşının repressiya uğraması onun başının üzərində təhlükəli və əbədi "Domikl qılıncı"na çevrilsə də, təzadlarla dolu həyat yolu və çoxsaylı sınaqlar onu sındıra bilmədi. Müasirlərinin çoxunun vurğuladığı kimi onun qeyri-adi inadkarlığı zaman-zaman rastlaşdığı maddi-mənəvi çətinliklərə sinə gərməsində duyulası köməkçi oldu. Onun ərsəyə gətirdiyi çox sanballı tədqiqatlar və təsviri sənət əsərləri də bunu təsdiqləyir. Bu incə xanımın başına gələnləri bir başqası yaşasaydı, yəqin ki, çəkdiyi rəsm əsərləri yalnız pessimist notlara köklənmiş olardı. Amma tarixçi-alim, musiqiçi və xarici dillər mütəxəssisi kimi molbert qarşısında dayanan Sara xanımın nə palitrasında, nə də kətanda gerçəkləşən müxtəlif mövzulu əsərlərində yaşananlara ittihamedici "işarə"dən uzaq bir nikbinlik hakimdir. Hər halda onun bizim günlərə gəlib çatmış müxtəlif janrlı əsərləri bunun söyləməyə əsas verir...

Uşaqlıq zamanı İstanbuldakı Janna dArk adına fransız kollecində aldığı ilkin rəsm dərsləri, sonra isə Bakı Rəssamlıq Texnikumunu bitirməsi (1941) ona ruhunda gəzdirdiyi gözəlliyi duymaq və onu başqaları üçün də estetik qaynağa çevirmək, bununla da özünün yaratmaq missiyasını gerçəkləşdirməyə imkan vermişdir, desək, yanılmarıq.

Öncə qeyd edək ki, Sara xanımın bədii irsi o qədər də zəngin deyil. Bunu əsasən tarixçi-alimin əhatəli elmi yaradıcılığı ilə əlaqələndirmək olar. Onun ilkin fəaliyyəti nüfuzlu mədəniyyət ocağımız sayılan Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. 1941-1945-ci illərdə burada çalışan Sara xanım teatrın baş rəssamı Nüsrət Fətullayevlə birlikdə müxtəlif tərtibat işlərinin həyata keçirilməsində yaxından iştirak etmiş, əsasən dekorator kimi fəaliyyət göstərmişdir. Həmin dövrün müharibə ilə bağlı olduğunun və demək olar ki, teatrda yeni əsərlər hazırlanmadığının qarşılığında, əsas diqqət arxa cəbhədə çalışanların düşmən üzərində qələbəyə inamının möhkəmləndirilməsinə xidmət edən təbliğat xarakterli bədii vasitələrin geniş tətbiqinə yönəldilmişdi. Odur ki, bu səbəbdən gənc rəssamın sənət bioqrafiyasında yaradıcılıq baxımından duyulası nə isə baş verməyib.

İndiki məqamda biz Sara xanımın rəssamlıq sahəsindəki yaradıcı potensialını cəmisi beş əsərin timsalında dəyərləndirməyə məcburuq. Onun 1941-ci ildə diplom işi olaraq çəkdiyi "Natürmort"u rəssamın bədii irsinin yaddaqalan nümunələrindən saymaq mümkündür. İri ölçülü bu əsərin kompozisiyasını Azərbaycan torpağının payız nemətləri təşkil edir. Güllü parça önündə müxtəlif meyvələri bir araya gətirən, onları qədim mis və çini qablarla əlaqələndirən müəllif, bütünlükdə əsərin həm diqqətçəkənliyinə, həm də təsvirin mənəvi-estetik qaynağa çevrilməsinə nail olmuşdur. Əsərin incə keçidlərlə yaradılmış rəng çalarlarının ümumi ahəngi çox duyğulandırıcıdır. Etiraf edək ki, öz yaradıcılığında realist-gerçəkçi ifadə vasitələrinə tapınan Sara xanım, nümayiş etdirdiyi yüksək sənətkarlığın sayəsində "Natürmort" əsərinin bu janrda yaradılan ən yaxşı nümunələrdən biri olmasını şərtləndirmişdir...

Rəssamın digər üç əsəri isə mənzərə janrına aiddir. Bunlar "Xan sarayı", "Şəki mənzərəsi" və "Göygöl" adlı lövhələrdir. Sara xanım bu əsərlərin hər birinə tarixilik bəxş edə bilmişdir, desək, yanılmarıq. Nikbin boyalarla işlənmiş həmin tablolarda təbiətin daşıdığı təbii gözəlliyin qabarıq və yaddaqalan bədii görkəm aldığı kifayət qədər duyulandır. Göygölü əhatələyən cəlbedici landşaftın mavi sularda əksinin bədiiləşdirməsinə üstünlük verən Sara xanım, bütünlükdə təbiətin möcüzələrindən sayılan bu gözəllik qaynağını heyranedici görkəm almasına nail olmuşdur. Bu mənzərə hazırda uzaq Meksikanın muzeylərinin birinin eksponatıdır.

Qırmızı kirəmitli evlərin əhatəlidiyi Şəki küçəsindəki keçmişdən bu günümüzə uzanan tarixi-etnoqrafik auranın ("Şəki mənzərəsi") gözoxşayan estetik qaynağa çevrilməsi də, bilavasitə Sara xanımın nümayiş etdirdiyi yüksək professionallıq sayəsində baş tutmuşdur, desək, yanılmarıq. Doğrudan da lirik tutumlu bu əsərdə mavi-zümrüdü rənglərin müxtəlif çalarlarının şəkəri tonda verilmiş yer və divarla vəhdətdə yaratdığı ovqat cəlbedici və təsirlidir. Yeri gəlmişkən deyək ki, bu əsər hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasındadır.

Onun "Xan sarayı" lövhəsində də mənzərənin inandırıcılığı və ovqat daşıyıcılığı kifayət qədər qabarıq görkəm almışdır. Sarayın fasadını iri planda görüntüyə alan müəllif, arxada şəbəkəli pəncərələri və tağlı eyvanı və ora qalxan kərpic pillələri təsvir etməklə, həyətin yaşıllığı üzərində qərarlaşan müxtəlif atributların diqqətçəkənliyinə nail olmuşdur. İlıq-nikbin rənglərin zərif çalarları bütünlükdə tablonun lirik ovqat daşıyıcılığını şərtləndirmişdir...

Rəssamın Bakı muzeyində saxlanan digər lövhəsi isə "Üzüm yığımı" adlanır. Bu çoxfiqurlu süjetli kompozisiyada Abşeronda üzüm yığımı təsvir olunub. Bir neçə qadın və yaşlı kişi iri ağacın kölgəliyində toplanmış məhsulu yeşiklərə doldurmaqla məşğuldurlar. Bu kompozisiyasında da Sara xanım rənglərin ovqat yaratmaq



gücündən istifadə etməklə, əməyin təntənəsinə həsr olunmuş lövhənin yaddaqalanlığını əldə edə bilmişdir. Əlavə edək ki, əsərin incə rənglərdən "hörülmüş" nikbin koloriti gözoxşayan və duyğulandırıcıdır...

Bütünlükdə, Sara xanım Aşurbəylinin rəssamlıq irsinin sayca azlığına baxmayaraq, onun yüksək sənətkarlıq nümunəsi olmasını və milli təsviri sənətimizin inkişaf tarixinə layiqli töhfə sayıldığını söyləmək olar.

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Səhifələyici: Tünzalə Vahabova

Çapa imzalanmış 25.01.2016.
Şərti çap vərəqi 5,5. Sifariş № 592.
Kağız formatı 84x108 1 16. Tiraj 300.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 84.